

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Görkəmli şərqşünas alim Aida İmanquliyeva



3

SƏS

№ 171 (7096)

19 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# 23 saata bütövləşən Azərbaycan!



2

# Gözdən pərdə asmaq üçün İMİTASİYA



8

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Kəpənək" uşaq bağçasının açılışında iştirak edib



4

## "Ermənistanın sülhlə bağlı təkliflərə 70 gün ərzində cavab verməsi suallar doğurur"



4

## Yaşıl enerji erasında Azərbaycanın potensialı



5

## Valideyn-övlad münasibətləri: ONLARI TANIYIN!



6

## Çoxuşaqlı, yoxsa çoxdərdli ailə?



16

# 23 saata bütövləşən Azərbaycan!

***30 il işğal altında inləyən torpaqlarımızın azad edilməsi elə 30 il idi ki, bu xalqı narahat edən ən başlıca məsələ idi. Başımız aşağı, üzümüz qara idi. Bu namus məsələsi bizə başımızı dik tutub yeriməyə cəsarət vermirdi. Çünki hara gedirdiksə, harada söhbət düşürdüsə, torpaqları işğal olunmuş bir xalqın nümayəndələri olaraq qarşılanırdıq. Qarabağdan söhbət açılanda yaramızın qaysağını qoparırdılar elə bil. Yenə qanı süzürdü, yenə ağrısı ərşə qalxırdı. 30 il yaralarımız təkrar-təkrar soyuldu, qaysaqladı, yeniləndi, sağalmadı.***



## Unudulmaz tarix

Nə az, nə çox, 30 il torpaq həsrəti ilə yanıb yaxıldıq. Məcburi şəkildə çıxarıldığımız yurdlarımız yolumuzu gözlədi. Həyət-bacamız, bağ-bağatımız, min bir zəhmətlə qurduğumuz evlərimizə sadəcə yuxularımızda qonaq getdik. Əzizlərimizi itirdik. Onların "yurdum-yurdum" deməsinə illərlə şahid olduq. Ahi-naləsi qaldı qulaqlarımızda. Yurdu üçün axıtdığı yaşlar qaldı gözlərimizdə. Köçkünlüyün ilk illərində qarşılaşdığımız zülmün min bir üzü həkk oldu beyinlərimizə.

Ermənilərin gözlərimiz qarşısında övladlarımızı süngüyə taxması, yaşlılarımıza təhqiramiz şəkildə yanaşması, bizi silah burnunda evimizdən didərgin salması illərin acı xatirələrinə çevrildi. Həyatımız göz yaşları vərəqlərində saralan xatirə dəftərinə çevrildi. Bu dəftərin hər səhifəsi torpaq, yurd oldu bizə, lakin onların ətrini verə bilmədi.

Minlərlə övladımızı itirdik Birinci Vətən müharibəsində. Köksümüzə dağ çəkildi. Atamız, həyat yoldaşımız, nişanlımız, sevdiyimiz, qardaşımız şəhid oldu. Həm əzizlərimizi itirdik, həm də əzizimizdən də əziz torpağımızı, yurdumuzu. Həm yurdsuz qaldıq, həm də atasız, qardaşsız, yoldaşsız...

Düz 30 il hər gün günü ümidlə başlayıb ümidsizliklə bitirdik. Hər səhər gözlərimizi "bəlkə bu gün olar" deyə inamla açdıq. Lakin gecənin qaranlığında "bu gün də olmadı" deyə gözlərimizi yenidən bir inamsızlığa qapatdıq. Torpağımızla, yurdumuzla, evimizlə bağlı qurduğumuz xəyalları günlər bizi ovuda-ovuda elə xəyal olaraq da saxladı. Bu xəyallar yurdumuzda övladımızın məktəbə getməsi, toyu-nişanı ilə bağlı idi. Bu xəyallar həyatda vidalaşmaq vaxtımız çatanda öz yurdumuzun torpağında dəfn olunmağımızla bağlı idi.

Lakin illər bir-birini əvəz etdikcə bu xəyallar da xəyal olaraq qalırdı. Neçələrimiz elə yad yurddaca dünyamıza "əlvida" deyib, yad yurdda da torpaq evə qonaq olduq. Neçələrimiz yurdumuzda deyil, başqa yurdda birinci sinfi onbirinci etdik. Neçələrimiz yurdumuzda yox, köçkünlükdə nişanlandıq, toyumuz oldu, hətta övladlarımız üçün də bu, eyni cür oldu. Öz evlərimiz nə gəlin qarşıladı, nə gəlin köçürdü. Ağsaqqal, ağbirçəklərimiz öz evlərimizdən qəbir evinə yollana bilmədi. Bütün bunlar isə ürəyimizə dağ boyda dağ çəkdi zaman-zaman...

## 30 ilin acısını silən 44 gün

30 ilin hər saatı, hər dəqiqəsi Qarabağın işğaldan azad edilməsi üçün dövlətimiz çalışdı, danışıqlar apardı, haqq səsimizi dünyaya yaydı. Erməniləri dəfələrlə sülhə çağırdı. Özlərinin olmayan torpaqlardan əl götürməyə dəvət etdi. Lakin dünyanın karlığı, qonşuluqdakı ermənінin tamahı səsimizi eşitməyə imkan vermədi. Beləliklə, bu işi yalnız özümüzün həll edə biləcəyinə qərar verdik. Bunun üçün ilk olaraq ölkəmizin çökmüş iqtisadiyyatını dirçəltməyə başladıq. Ordumuzu təkmilləşdirdik. Çünki Birinci Vətən müharibəsində məğlubiyyətimizin səbəblərindən biri də mükəmməl milli ordumuzun olmaması idi. Bu səbəbdən də düşmənin qarşısına layiqli ordu çıxarmaq dövlətimizin qarşısına qoyduğu əsas məqsəd oldu.

Qarabağ mövzusu 1993-2003-cü illərdə Ümummilli Liderimizin, 2003-cü ildən 2020-ci ilə qədər isə dövlətimizin başçısı cənab İlham Əliyevin fəaliyyətinin prioritetini təşkil etdi. Ölkə rəhbəri 20 ilə yaxın bir dövrdə Qarabağın sülh yolu-insan itkisi olmadan qaytarılması təklifi və təkidi ilə dünyanın bütün mötəbər kürsülərindən çıxış etdi. Lakin dünya susdu. Ermənilər özlərini karlığa vurdu.

Prezident, Ali Baş Komandanımız bütün çıxışlarında Qarabağ məsələsinin sülh yolu ilə həllinin mümkün olmadığı təqdirdə hərb yolu ilə həll olunacağını vurğulayırdı. Bu, sadəcə verilən söz deyildi. Bu söz böyük inam idi. Və bu sözün bir tərəfində də qurulmaqda, təkmilləşdirilməkdə olan Azərbaycan Milli Ordusu dayanırdı. Elə bir ordu ki, zaman gələcək, müharibə meydanında dövlətimizin başçısının verdiyi sözü öz gücü ilə təsdiqləyəcəkdi.

Belə də oldu. Dünyanın susduğunu, ermənilərin isə hər gün daha da azğınlaşdığını görən Azərbaycan dövləti bu məsələnin son yolunun hərbi yol olduğunu əsas götürərək, ermənilərə yerini göstərməyin vaxtı çatdığını dünyaya nümayiş etdirdi. 2020-ci ilin 27 sentyabrı İkinci Vətən müharibəsinin başlandığı tarix oldu.

Cəmi 44 gün davam etdi bu müharibə. 30 ilin ələm-qəmini, dərd-sərini, ağrı-acısını, utancını 44 günün saatları, dəqiqələri silə-silə irəliləyirdi. Düzdür, müharibə heç də asan iş deyil. Çətindən çətindir, həm maddi, həm mənəvi ağırlığı ilə. Bəlkə də Qarabağ uğrunda birinci müharibədən də çox acısı olacaqdı. Lakin xalq bu acıları artıq gözə almırdı. Çünki torpağını istəyirdi. Alnındakı qara ləkəni övladının qanı ilə silməli olsa da, bu ləkənin silinməyi vacib idi. Ona görə ki, azərbaycanlılar əsrlərin o üzündən bəri heç vaxt alnı ləkəli yaşamamışdı. Torpaq-namus məsələsi onların ən həssas duyğusu olub. Bu duyğularla oynamaq fikrində olanlar isə tarixin bütün dönəmlərində ağır cəza alıblar.

Elə bütün bunlara görə də xalq bir nəfər kimi Ali Baş Komandanın çağırışına səs verdi, Onun ətrafında birləşdi. Həmrəylik nümayiş etdirdi. Könüllü şəkildə cəbhəyə yollanmaq istəyənlərin, bunun üçün səfərbərlik idarələrinə müraciət edənlərin sayı-hesabı olmadı. 2020-ci ilin 44 günündə bir dastan yazıldı. Bu dastanda dövlətimizin yeri başqa, xalqın yeri başqa, bu xalqın övladlarının yeri isə başqa oldu. Hər kəs mövqeyindən asılı olmayaraq birlik göstərdi. Elə Qarabağ dastanının yaşanmasına və yazılmasına səbəb də bu birlik oldu. 44 günün hər anı qələbələrlə dolu oldu. Dövlətimizin başçısı dəfələrlə xalqa müraciət etdi və hər müraciətində yeni qələbə xəbərlərini xalqımıza çatdırdı, onları təbrik etdi.

Bu müraciətlər inamla dolu idi. Bu müraciətlərdən hər gün bir qədər də irəliyə addımlamağa cəsarət alırdıq. Düşmənin əzilməsini, məhv edilməsini, torpaqlarımızın da, bu torpaqlar uğrunda canlarından keçənlərin də qisasının alınması ilə dolu idi bu müraciətlər. Bu müraciətlərlə yurdlarımız yenidən bizim olurdu, bayrağımızın o yurdların ən yüksək zirvələrində dalğalanmasını görürdük. Bu müraciətlərdə xalqın sevinc göz yaşlarını görürdük. Yurd, doğma torpaq sevgisini görürdük.

Beləliklə, 44 gün başa çatdı, noyabr ayının 10-da Ali Baş Komandanımızın sərkərdəliyi ilə milli ordumuzun qətiyyəti qarşısında düşmən ağ bayraq qaldırıb təslim olduğunu elan etdi. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyannamə ilə ermənilərin qarşısına öhdəliklər qoyuldu. Onlar bu öhdəliklərin yerinə yetiriləcəyinə söz verərək müharibənin dayandırılması üçün yalvardılar. Azərbaycan isə 30 ilin qisasını 44 gündə düşməndən zərrə-zərrə aldı. Sonda isə Böyük Zəfər qazandı. Qarabağ 30 il sonra 44 gün içərisində yenidən anası Azərbaycana qovuşdu. Və Zəfərdən dərhal sonra da düşmən tərəfindən daşı daş üstündə qalmayan həmin torpaqlarda bərpa işlərinə başlandı ki, bir qərinəyə yaxın yurdundan didərgin salınmış soydaşlarımız qısa zamanda əzəli torpaqlarına, evlərinə qayıda bilsinlər.

## Müharibədən sonrakı 3 il və 23 saat

Bəli, Zəfər qazandıq. 10 noyabr Bəyannaməsi ilə müharibə bitdi. Bu gün aradan 4 ilə yaxın bir vaxt keçir. Lakin Ermənistan nə sülh sazişinə əməl etdi, nə də Bəyannamədə üzərinə düşən öhdəlikləri yerinə yetirdi. Əksinə, Qarabağda və Şərqi Zəngəzurda atəşkəsi hər dəqiqə pozdu, illərlə minaladığı ərazilərin xəritəsini verməyərək bizim üçün olmazın problemlərini yaratdı. Ən əsası isə imza atdığı sənəddəki öhdəlikləri yerinə yetirməkdən boyun qaçırdı. Ermənistan bizim ərazimizdə yaşayan soydaşları vasitəsilə talançılıq işlərini yenə də davam etdirdi. Silah-sursat toplamağa, separatçıları bu torpaqlarda yerləşdirməyə başladı. Dara düşəndə isə səsini dünya ictimaiyyəti ilə bir etdi ki, Azərbaycan bizə humanitar yardım üçün yol vermir, bizi incidir. Beləliklə də yeni problemlər meydana gəldi.

Erməni yalanı, ikiüzlülüyü yenə də işə başladı. Lakin düşmən nədənsə 44 günlük müharibədə Azərbaycanın verdiyi dərsi unutmağa başladı. Ötən müddətdə dirçəldiyini, yeni təxribatlara başlamağa özündə güc olduğunu zənn etdi. Bu yeni təxribatın əsası isə müxtəlif terror hadisələri, işğaldan azad edilmiş ərazilərimizə 2021-ci ildə Ermənistanda istehsal olunan minaların basdırılması, xidməti işlə bağlı həmin ərazilərdə olan soydaşlarımızın minaya düşüb həyatını itirməsi oldu.

Erməni terror dəstələrinin, bu dəstələrin quldur başçılarının qarşılarına qoyduqları məqsəd bizim üçün aydın olsa da, lakin özləri üçün aydın deyildi ki, 44 gündə axı başımız olmazın müsibətlərini çəkdi. Biz başımızı yenə hara qaldırırıq...

Azərbaycan isə hərzamankı "torpaqlarımıza göz dikənlərin, ərazi bütövlüyümüzü, konstitusiya quruluşumuzu pozanların hər biri cəzasını alacaqdır" bəyanatı ilə yenidən gündəmə gəldi. Çünki bunu erməni separatçılarının özləri belə istədilər.

Beləliklə 19 sentyabr saat 13.00-da Azərbaycan erməni terrorizminə qarşı lokal antiterror tədbirlərinə başladı. Və göstərmək istədi ki, heç kim Azərbaycan ərazisində təxribat törədə, at oynada bilməz. Bu tədbirin müsbət tərəfi həm də onunla xarakterizə olunur ki, antiterror tədbirləri Ali Baş Komandanımızın mülki əhaliyə və mülki obyektlərə zərər vurulmaması əmri ilə həyata keçirildi. Bu isə bizim həm 1-ci, həm də 2-ci Vətən müharibəsində ermənilərdən fərqliliyimizi, insanlığa, beynəlxalq hüququn normalarına sayğı və məsuliyyətlə yanaşdığımızı təsdiq edən məqam idi.

Bizim işimiz təbii ki, erməni xalqı ilə deyil, separatçı qüvvələr ilə idi. Bu ünsürlər də cəmi 23 saatda zərərsizləşdirildi, 44 günün sonunda olduğu kimi, yenə də ağ bayraq qaldırıb təslim oldular və danışıqlara razı olduqlarını bildirdilər.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur dövlətimizin apardığı uzaqgörən siyasət, qətiyyətli addımla erməni revanşistlərindən bir daha azad edildi. Bir qarış da olsun torpağımız düşmən əlində qalmadı. Bununla da ərazi bütövlüyümüz və konstitusiya quruluşumuz tamamilə bərpa olundu. Qarabağda və Şərqi Zəngəzurda yeni həyat başladı, 44 gündən sonra başlayan yeni həyatdan da gözəl və təhlükəsiz. Qarşıda yəqin ki, Ermənistan 10 noyabrda üzərinə götürdüyü öhdəlikləri də yerinə yetirər. Çünki bu öhdəliklər tək Azərbaycan üçün deyil, həm də region dövlətlər üçün əlverişlidir. Hələ istəsə, özü üçün də əhəmiyyətli ola bilər...

***

Tariximizin səhifələrinə 30 ilə 44 gündə, 3 ilə 23 saatda aydınlıq gətirən bir tarix də əlavə olundu. Bu, bizim qürur tariximizdir. Namus məsələmizi həll edən, alnımızı açıq, başımızı dik edən bir tarixdir. Odur ki, bu tarix də, bu günləri də bizə yaşadanları tarix boyu unutmayacağıq... Ətrafında birləşdiyimiz "Dəmir yumruq" Qarabağın və Şərqi Zəngəzurun nicatı olaraq müasir tariximizin ilk səhifəsidir. İlk dərs kimi həyat boyu xatırlayacağımız ilk səhifə...

***Mətanət Məmmədova***

# Görkəmli şərqşünas alim Aida İmanquliyeva



Ən yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olan Azərbaycan qadını iradəsi, saflığı, sədaqəti, qətiyyəti, dözümlülüyü ilə cəmiyyətimizdə böyük nüfuz qazanıb. Azərbaycan qadını yüksək pillələrdə dayanır, ölkə daxilində və beynəlxalq aləmdə böyük nailiyyətlər qazanır, ictimai həyatın bütün sahələrində öz sözünü inamla deyir. Azərbaycan qadını dövlətimizin inkişafına və cəmiyyətimizin yüksəlişinə özünün layiqli töhfələrini verir. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında kifayət qədər böyük nüfuza sahib olan qadınları olub və var. Azərbaycanın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas elmlər doktoru olan böyük alim Aida İmanquliyevanın da öz yeri, mövqeyi var. Bütün həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək, şərəfli bir ömür yaşamış Aida xanım bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Onun bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti böyük istedada malik olduğunu göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Aida xanım haqqında belə yazır:”Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir.

Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir”. Aida xanımın qələmindən çıxan hər bir əsər gərgin, böyük bir zəhmətin nəticəsidir. XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın tərcümeyi-halına nəzər salsaq görərik ki, Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət ”Bakı” və ”Baku” qəzetlərinin baş redaktoru işləmişdir. Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), Ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə, institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə, 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Şərqşünaslıq İnstitutunun elmi və ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə, uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyib. Buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə, ona ”Xarici Asiya və Afrika xalqları ədəbiyyatı” ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir.

## ŞƏRQ ƏDƏBİYYATLARININ GƏLƏCƏKDƏ TƏDQİQİ ÜÇÜN ÇOX MÜHÜM ZƏMİN

Aida İmanquliyeva 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə ”İnsan və quş” adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, Ərəb filologiyası şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət kiçik bir antalogiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. ”Ağ günlərin sorağında” adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin ”Boğulmuş hıçqırıqlar” adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış və xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində 3 monoqrafiya (”Mixail Nüaymə” və ”Qələmlər birliyi”, ”Cubran Xəlil Cubran”, ”Yeni ərəb ədəbiyyatının korifeyləri” və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra, elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə ”Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı” adlı ilk mətbu məqaləsi ”Azərbaycan” jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada ”Vostoçnıy almanax” jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

## ”AİDA XANIMIN FİKİRLƏRİ MƏHCƏR ƏDƏBİYYATININ AYRI-AYRI PROBLEMLƏRİNİ ÖYRƏNMƏK ÜÇÜN ƏSAS MƏNBƏ ROLUNU OYNAYIR”

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi ”Ərəb filologiyası məsələləri” məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. ”Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi” (1982), ”Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri” (1985), ”Şərq filologiyası məsələləri” (1986-1987), ”Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə” (1987), ”Xarici Şərqin problemləri: tarix və müasirlik” (1988), ”Şərq ədəbiyyatında ənənə və novatorluq” (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır. A.İmanquliyeva 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən, sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur. Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Müasirləri onun haqqında belə yazırdı: ”Aida xanım beynəlxalq aləmdə dünyanın görkəmli alimləri tərəfindən bütün şərqşünaslıq mərkəzlərində məhcər ədəbiyyatının ən sanballı tədqiqatçısı kimi qəbul edilir. Onun əsərlərindən tez-tez istifadə olunur, çıxış nöqtəsi kimi ona müraciət edilir və Aida xanımın fikirləri məhcər ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır. Aida xanımın təşəbbüsü ilə Azərbaycanda simpoziumlar çağırıldı. O, həmin simpoziumların həm təşkilatçısı, həm də əsas məruzəçilərindən biri idi. Bu da Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzundan irəli gəlirdi”.

## ”ONUN BÖYÜK SEVƏN ÜRƏYİ, İNCƏ VƏ SƏXAVƏTLİ QƏLBİ VAR İDİ”

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açmışdır. Böyük insanın çoxşaxəli, zəngin fəaliyyəti Aida xanımı xanımlıqdan məhrum edə bilməmişdi. O, hər şeydən əvvəl öz ailəsini, həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ana idi. Aida xanımda Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətlər təcəssüm olunurdu. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa, tamlığa və vəhdətə can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olub. O, dünyamıza, xalqımıza, cəmiyyətimizə yüksək intellekti, zəngin mənəvi keyfiyyətləri ilə nümunə olan övladlar bəxş edib. Aida xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, akademik Nərgiz xanım Paşayevanın anasıdır. Mehriban xanım Əliyeva Aida xanımın onun bir şəxsiyyət kimi yetişməsində, kamilləşməsində rolunu belə dəyərləndirib: ”Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi”.

Bu gün Aida xanımın arzu və əməlləri Nərgiz xanım Paşayevanın, xüsusilə, Mehriban xanım Əliyevanın timsalında əzmlə davam etdirilir. Bu gün biz fəxrlə deyə bilərik ki, Aida xanım İmanquliyevanın ailə ənənələri onun nəcabətli övladlarının timsalında yaşayır və nəsildən-nəslə keçərək əbədilik qazanır.

Qeyd edək ki, görkəmli ədəbiyyatşünas xanım A.İmanquliyeva 1992-ci il sentyabrın 19-da Bakıda dünyasını dəyişib.

Bu gün XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın xatirə günüdür.

***Zümrüd BAYRAMOVA***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ”Kəpənək” uşaq bağçasının açılışında iştirak edib









***Sentyabrın 18-də Bakının Nərimanov rayonunda yeni inşa edilən ”Kəpənək” uşaq bağçasının açılışı olub. AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.***

”Kəpənək” məktəbəqədər təhsil müəssisəsinin direktoru Yuliya Əliyeva Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya bağça barədə məlumat verib.

Bildirilib ki, məktəbəqədər təhsil müəssisəsinin əsas missiyası uşaqların həm akademik, həm də sosial-emosional inkişafı üçün geniş imkanlar yaratmaq və uşaqların məktəb mühitinə rahat inteqrasiyasına dəstək göstərməkdir.



”Kəpənək” uşaq bağçasında 3-6 yaşlı uşaqlar üçün məktəbəqədər təhsil və qayğı xidməti olacaq. Burada 3-4, 4-5 və 5-6 yaş arasında qruplar fəaliyyət göstərəcək. Məktəbəqədər təhsil müəssisəsi ilə tanışlıq zamanı bildirilib ki, yüksəkkeyfiyyətli təhsillə yanaşı, uşaqların hərtərəfli inkişafı və sosial tədbirlərdə fəal iştirakı da diqqət mərkəzində olacaq. ”Kəpənək” bağçası uşaqlar üçün təhlükəsiz mühit olmaqla yanaşı, onların qayğı və sevgi ilə əhatə olunmasını hədəf götürüb. Həmçinin uşaqların həm əqli, həm də kreativ inkişafı üçün dərsdənkənar fəaliyyət nəzərdə tutulub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iki mərtəbədən ibarət bağçanın müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş otaqları ilə tanış olub, tədris barədə vacib tövsiyələr verib.

Qeyd olunub ki, burada uşaqların təlim-tərbiyəsinə cəlb olunan heyətin davamlı peşəkar inkişafına, müxtəlif təlimlərdə iştirakına xüsusi önəm veriləcək. Bildirilib ki, məktəbəqədər təhsil müəssisəsi təhsildəki yeniliklər və yeni trendləri izləməyi, o cümlədən Kembric proqramını keyfiyyətli tədris etmək üçün onlayn təlimlərə qoşulmağı da planlaşdırır.

# “Ermənistanın sülhlə bağlı təkliflərə 70 gün ərzində cavab verməsi suallar doğurur”

***Ermənistan tərəfi əgər sülh müqaviləsinin irəli aparılmasında ciddidirsə və bu məsələdə həqiqətən maraqlıdırsa təkliflərə 70 gün ərzində cavab verməsi özlüyündə müəyyən suallar doğurur. Yəni, sülh müqaviləsinin əksər bəndləri üzrə tərəflər arasında müəyyən razılıqlar vardır, amma hələ də aparılmalı olan işlər göz qarşısındadır. Bu, ilk növbədə, Ermənistanın Konstitusiyası ilə əlaqədar olan məsələlərdir.***

AZƏRTAC AzTV-yə istinadla xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib.

”Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Ermənistanın Konstitusiyasında və digər normativ hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddialarına tam şəkildə son qoyulmalıdır. Ermənistanın Konstitusiyasına dəyişikliyi məsələsi onun daxili işi sayılsa da, orada Azərbaycana qarşı ərazi iddialarının olması, təbii ki, Azərbaycanı narahat edən bir məqamdır”, - deyə Hikmət Hacıyev vurğulayıb.



Sülh müqavilələrinin hər hansı bir hökumətlə deyil, xalqla imzalandığını da diqqətə çatdıran Azərbaycan Prezidentinin köməkçisi əlavə edib: ”Bizim də gözləntimiz ondan ibarətdir ki, sülh müqaviləsinə nail olunması üçün Ermənistan Konstitusiyasında edilməli olan dəyişikliklər referendum yolu ilə həyata keçirilmədir. Erməni xalqı da nəhayət ki, öz mövqeyini bildirərək məlum Miatsum, yəni, Qarabağı Ermənistanla birləşdirmək kimi utopik iddialarına, bütün ərazi iddialarına, irtica siyasətinə son qoyulduğunu və Azərbaycanla sülh şəraitində yaşamaq niyyətini konstitusion əsasda ifadə etməlidir və ümumxalq referendumunda öz mövqeyini bildirməlidir. Hesab edirik ki, bundan sonra proses irəliyə doğru daha sürətlə gedə bilər”.

# Yaşıl enerji erasında Azərbaycanın potensialı

Dünyada neft-qaz kimi ənənəvi enerji mənbələri tükənmək üzrə olduğundan, həmçinin ənənəvi mineral yanacaqlar ekologiyaya hədsiz ağır zərərin vurduğundan hazırda bütün inkişaf etmiş dövlətlər bu mənbələrindən asılılığı tədricən azaltmaq və gələcəkdə ondan imtina etmək istiqamətində fəaliyyətlərini gücləndiriblər. Fukusimadakı nüvə qəzasından sonra atom enerjisinin taleyi də şübhə altına düşdü. Bəzi ölkələr AES-ləri azaltdı və hətta tam ləğv etdi (məsələn, Almaniya). Belə vəziyyətdə alternativ enerji mənbələrindən istifadəni artırmaq məsələsi bəşəriyyətin qarşısında qlobal bir problem kimi dayanır.



Konkret sərhədləri və konkret həcmdə bərpa olunmayan ehtiyatlar limiti olan Yer planetinin təbii resursları son 100 ildə daha amansızcasına və daha sürətlə istismar olunur. Hesablamalara görə, əsrin ikinci yarısından etibarən neft-qaz və kömür yataqları tükənməyə başlayacaq. O zamanadək alternativ enerjiyə keçilməsə, bəşəriyyəti ağır günlər gözləyir. Təbii enerji tükənməzlik və bərpaolunma xüsusiyyəti, həmçinin ekoloji baxımdan təmizliyi ilə fərqlənir. Ekoloqların və fiziklərin hesablamalarına görə, alternativ enerji mənbələri bütün bəşəriyyəti istənilən qədər enerji ilə təmin etmək qüdrətindədir.

Hazırda dünyada istehsal olunan enerjinin yalnız 15 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşür. Azərbaycanda da bu sahədə işlər müəyyən işlər görülüb və getdikcə alternativ enerjinin payı artır. Artıq bir neçə ildir ki, ölkəmizdə külək və günəş enerjisindən istifadəyə başlanıb. Lakin hələlik, bu çox zəif haldadır. Halbuki, Azərbaycanın alternativ enerji imkanlar daha çoxdur. Günəş, külək, hidroelektrik stansiyaları potensialı çox yüksəkdir.

Azərbaycan işğaldan azad edilmiş əraziləri- 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan edib. Artıq bölgədə bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması işləri gedir.

Azərbaycanda yüksək potesiala malik 3 enerji sahəsi var- günəş, külək və su enerjisi. Bunların arasında ən külək enerjisi xüsusilə fərqlənir. Hər nə qədər ölkənin az hissəsində küləkli günlərin sayı çox olsa da.

Dünyada ilk 100 kVt gücndə külək elektrik stansiyası keçmiş Sovet İttifaqında (Krımda) istismar olunub. İndi müxtəlif gücdə və fərqli konstruksiyalarda olan külək mühərrikləri dünyanın bir çox yerlərində və hətta daim küləkli dəniz və okeanlarda da quraşdırılaraq istismar olunur.

Təcrübə göstərir ki, Azərbaycanın bir çox rayonlarında külək enerjisi qurğularının tətbiqinin böyük perspektivi var. Azərbaycan külək enerji resurslarına görə, dünyada bəlkə də 1-cidir. Hətta, külək enerjisindən istifadə olunmasında liderlik edən Almaniyada belə küləyin gücü ölkəmizdə olan qədər deyil. Hesablamalara görə, Azərbaycan 800 MVt-a yaxın illik külək enerjisi ehtiyatına malikdir. Bu ehtiyat ildə təxminən 2,5 milyard kVt/saat elektrik enerjisi deməkdir.

Bu isə öz növbəsində ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə küllü miqdarda tullantıların, o cümlədən ozondağıdıcı olan karbon dioksidin atmosferə atılmasının qarşısının alınması deməkdir. Üstəlik, öz maya dəyərinə görə, külək enerjisi digər alternativ enerji mənbələri ilə müqayisədə daha ucuz başa gəlir. Külək stansiyaların daha bir üstünlüyü odur ki, o böyük bir sahəni tutmur- bu qüllələrin altındakı torpaqdan aqrar və s məqsədlə istifadə etmək mümkündür. Dənizin içində də belə qurğular quraşdırmaq mümkündür və bu halda quru ərazimizdə torpaq sahəsi istifadə olunmur. Xəzərsahili bölgələrimizdə külək enerjisinin çox böyük potensialı var.

Günəş enerjisi sarıdan da biz şanslı ölkəyik. Azərbaycanda ildə 300 günəşli və 270 küləkli günün olmasını nəzərə alsaq demək olar ki, bu regionda külək və günəş energetikasının inkişafı çox perspektivlidir. Azərbaycanda günəşli saatların miqdarı il ərzində 2400-3200 saatdır. İl ərzində 1m2 yer səthinə düşən günəş enerjisinin miqdarına görə Azərbaycan (1500-2000 kVts) ABŞ, Rusiya, Fransa, Çin kimi ölkələrdən qabaqdadır ki, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər.

Azərbaycanın ümumi enerji sistemində su elektrik stansiyalarının istehsal gücünün xüsusi çəkisi hazırda 18 faiz təşkil edir. Ölkədə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün geniş imkanlar var.

Bu istiqamətdə aparılmış tədqiqat işləri nəticəsində Azərbaycandakı çayların tam hidroenerji potensialının 40 mlrd. kVt.s, texniki cəhətdən əlverişli potensialının isə 16 mlrd. kVt.s olduğu müəyyən edilib ki, bunun da 5 mlrd kVt.s kiçik SES-lərin payına düşür.

SES-lərin tikintisi sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradılması kimi önəmli məsələlərin həllində də mühüm rol oynayır. Azərbaycanda çaylar üzərində və su təsərrüfatı obyektlərində onlarla kiçik SES yerləşdirmək olar ki, onların da istehsal etdiyi elektrik enerjisi ildə azı 3 mlrd kVts təşkil edə bilər.

Azərbaycanın ümumi enerji sistemində su elektrik stansiyalarının xüsusi çəkisi son illər 11-12 faiz təşkil edir. Qeyd edək ki, hökumət yaxın perspektivdə 50-dən artıq kiçik SES-in tikintisini məqsədəuyğun hesab edir. İşğaldan azad olunmuş ərazilərdəki dağ çayları və yeni yaradılan su anbarları üzərində SES-lərin qurulması böyük həcmdə əlavə enerji isehsalına gətirib çıxaracaq.

Geotermal və biokütlə enerjisi potensialımız da az deyil. Yer təkinin istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Enerji istehsalında və istehlakında geotermal enerji mənbələrindən istifadənin üstünlüyü ondan ibarətdir ki, onların tətbiqi iri həcmli maliyyə vəsaiti tələb etmir. Azərbaycanda sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün yeni imkanlar açır. Ölkədə biomaddələrin böyük mənbələri mövcuddur. Hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bakı və ölkənin iri sənaye şəhərlərində bərk məişət və istehsalat tullantılarının utilizasiya olunması ictimai binaların qızdırılmasındakı çətinliklərin qismən aradan qaldırılmasını təmin etmiş olardı.

Bundan başqa, bioqaz qurğularından kənd təsərrüfatında və ya böyük heyvandarlıq fermalarında istifadə səmərəlidir.Artıq bəzi vətəndaşlarımız bu qurğularda peyindən istifadə edərək qaz və gübrə istehsal edir. Bu, tamamilə zərərsiz, faydalı bir texnologiyadır. Azərbaycanın irihəcmli neft-qaz ehtiyatları olsa da, hesablamalara görə, yeni yataqlar kəşf olunmazsa, uzağı 2050-ci ildən sonra bu ehtiyatlar tükənməyə başlayacaq. Bu isə ölkənin alternativ enerji mənbələrinə keçidini sürətləndirməsini zəruri edir. Azərbaycan hər il 20 milyard kVt\saat elektrik enerjisi istehsal etmək üçün təxminən 5 milyard kubmetr təbii qaz və 700 min ton civarında mazut işlədir. Bu isə həm ekoloji, həm iqtisadi problemlər yaradır. Alternativ enerji investisiyalar artırılsa, həm ekologiyamız sağlam qalar, həm də tükənməyən enerji mənbələrinə sahib olarıq.

Azərbaycan enerji ölkəsidir, bu torpağın altı da, üstü də enerji mənbəyidir. Hər halda, tükənən yeraltı enerjilərimizin əvəzinə tükənməz yerüstü enerji ehtiyatlarımızdan yararlansaq daha doğru olar. Çünki bu, daha təhlükəsiz, daha sağlam və ən əsası tükənməz enerjidir...

***Elçin Bayramlı***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# Qərbin İrəvanı silahlandırmasında əsas məqsəd...

## "İrəvana ayrılan milyonlarla dollarlıq "yardımlar", əlbəttə humanizm, yaxud ac-yalavac ermənilərin qarnını doyurmaq üçün verilmir"

Bölgədə yenə qan qoxusu gəlir. 44 günlük müharibədə məğlubiyyət acısı yaşayan Ermənistanı yenidən Azərbaycanla qanlı toqquşmalara sürükləmək üçün Farnsa, ABŞ və digər qərb dövlətləri açıq fəaliyyətə keçiblər. Özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən sözügedən Qərb dövlətlərinin Ermənistanı silahlandırmaları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir. Bu baxımdan Ermənistanın silahlandırılması qeyd etdiyimiz kimi, Qərbin regionla bağlı xoş olmayan niyyətindən xəbər verir. Üstəgəl, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Ermənistana pul yardımını iki dəfədən çox artırması da qətiyyən xoş niyyətdən irəli gələn addım sayıla bilməz. Bu maliyyə yardımı birbaşa rəsmi İrəvanın bölgədə yeni təxribat ocağına çevrilməsi üçün ayrılan vəsaitdir. Təbii ki, burada Qərbin Ermənistan ərazilərini ikinci Ukrayna cəbhəsinə çevirmək planları önəmli şəkildə yer alır. Çünki tarix boyu daima beynəlxalq güclərin siyasi maşası kimi ad çıxarmış Ermənistan Qərb üçün başqa heç nəyə yarayası deyil. Bunun qarşılığında Ermənistan da Qərbdən Azərbaycan əleyhinə təxribatlarını dəstək gözləyirdi. Və istəyini almağa başlayıb artıq. Bütün bu proseslərin fonunda sistematik şəkildə Ermənistanın Azərbaycan əleyhinə qızışdırılma tendensiyaları aydınca müşahidə olunur.USAİD və digər qərb təşkilatlarının son bir neçə ay ərzində ardıcıl olaraq Ermənistana 10 milyonlarla dollar "yardım" ayırmaları həm də onların rəsmi İrəvanın üzərinə qoyduqları yeni təxribat missiyası ilə bağlıdır: "Çünki 44 günlük müharibədən sonra Nikol Paşinyan hökuməti açıq şəkildə anti-Rusiya siyasəti yürüdərək sürətlə Qərbə doğru yuvarlanmğa başladı. Buna ən bariz nümunə Ermənistanın KTMT-nin bütün tədbirlərini boykot etməsi, bölgədə daha çox qərb maraqlarını dəstəkləyən layihələrə qoşulması, əlaxüsus da öz ölkəsində ABŞ və Avropa İttifaqı hərbi missiyalarının fəaliyyətinə "yaşıl işıq" yandırmasıdır. Əslində, son olaraq ayrılan maliyyə yardımları ilə ABŞ Ermənistana Rusiya ilə əlaqələri ölü sferaya daşıdığı üçün bir növ "təşəkkür edib".Bu cür "yardımlar", əlbəttə humanizm, yaxud ac-yalavac ermənilərin qarnını doyurmaq üçün verilmir. Əsas məqsəd təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, yeni müharibəni alovlandırmaq cəhdidir. Təkcə ABŞ-mı?- qətiyyən! N.Paşinyanı öz balası kimi bağrına basan Emmanuel Makronu niyə yaddan çıxaraq ki? Əslində, ilk və ciddi təxribat oyunları "Yelisey" sahibinin başının altından çıxıb. Bütün zamanlarda ermənipərəst mövqeyini gizlətməyən və hər zaman Avropada əsas erməni dayağı sayılan Fransa fitnəkar siyasəti ilə hayların ölmüş ümidlərini "dirçəltməyə" can atır. Afrikada ciddi problemlərlə üzləşərək ağır duruma düşən rəsmi Paris, Cənubi Qafqazda da pozucu fəaliyyətindən əl çəkmir və durumu gərginləşdirmək istiqamətində işini davam etdirir. Fransa parlamentinin əksər deputatları, siyasi dairələri açıq-aşkar Azərbaycana qarşı nifrətlərini gizlətmirlər. Yeni koloniya tapmış kimi sevinən E.Makron var gücü ilə Ermənistanı öz vasitəsi ilə bölgədə qərbin əsas dayağı kimi nümayişə çıxarmağa çalışır.

Belə görünür ki, Qərb, xüsusilə Fransa Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmaqla yanaşı, rəsmi Moskva ilə normal münasibətləri olan və Türkiyənin müttəfiqi sayılan Azərbaycana qarşı da silahlı planlarına sürükləyir. Ermənistanın qarşısına qoyulan missiya budur: həm Rusiyaya qarşı qərbin bufer zonası olacaqsan, həm də Azərbaycan və Türkiyəyə qarşı vuruşacaqsan. N.Paşinyan bu təxribat planına qəti olaraq "hə" deyərsə, bu, həm də birbaşa Ermənistanın 44 günlük müharibədən daha ağır zərbə almasına gətirib çıxaracaq.

ARAŞDIRMA

# Validеyn-övlad münasibətləri: ONLARI TANIYIN!

***Ailə böyüklərin və uşaqların qarşılıqlı əlaqədə olduğu və bir-birinə təsir etdiyi qurumdur. Bu qurum uşağın fiziki, əqli və sosial sahələr kimi bir çox sahədə inkişafına əhəmiyyətli təsir göstərir. Bu səbəbdən valideyn-övlad münasibətləri əsas etibarilə ana və atanın rəftarından təsirlənir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Valideyn münasibətləri tələbkar və avtoritar münasibət, sərbəst və həddindən artıq yumuşaq münasibət, qeyri-sabit /qərarsız münasibət, qoruyucu münasibət, laqeyd/rəddedici münasibət, arxayınlaşdırıcı, dəstəkləyici/demokratik münasibət kimi təsnif edilir.

Tələbkar və avtoritar valideynlik münasibətlərində uşaq daimi təzyiq altındadır. Onun etdiyi hər davranış qiymətləndirilir və tənqid olunur. Sevgi və diqqət o zaman verilir ki, uşaq onların istədiyi kimi davransın. Uşaqdan öz yaşından və inkişafından kənar yetkinlik və müvəffəqiyyət gözlənilir. Uşağın istəklərinə, hisslərinə, düşüncələrinə çox əhəmiyyət verilmir.

Valideynlərin uşağı daim tənqid etməsi uşağı utancaq edir. Bu zaman onda atdığı hər addımda səhv etmək qorxusu ola, həmçinin istəklərini ifadə etməyən utancaq davranışlar göstərə bilər. Bu münasibətlə böyüyən uşaqlar problemlərin öhdəsindən gəlməkdə çətinlik çəkə bilərlər. Çünki uşaqlara davamlı olaraq nə etməli və ya etməməli olduqlarını söyləyirlər. O, fərqli problemlə qarşılaşdıqda və ailə üzvləri onu müşayiət etmədikdə, çaxnaşmaya və problemi həll etməkdə çətinlik çəkə bilər. Bütün bunlara görə o, özünə inamsızlıq yaşayar.

Özünü dəyərsiz və sevilməmiş hiss etmək, daim cəza qorxusu, məsuliyyətdən qaçmaq, güclülərin tərəfinə keçmək, göstərişlərə həddən artıq açıq olmaq da zalım və avtoritar valideynlik münasibəti ilə böyüyən uşaqlarda müşahidə olunur.





## Sərbəst və həddindən artıq tolerant valideynlik münasibətləri

Bu münasibətin ümumi olduğu ailələrdə uşaqların istəkləri demək olar ki, hər şəraitdə yerinə yetirilir. Uşaqların pis rəftarlarına elə dözürlər ki, onlara bu səhvləri görməyə icazə verilmir. Demək olar ki, nizam-intizam hissi də məhv olur. Ailələr uşaqlarının bir çox davranışlarına icazə verir və məhdudiyyətlər qoymaqda demək olar ki, təsirsizdirlər.

Liberal və həddindən artıq tolerant valideyn münasibəti ilə böyüyən uşaqlarda məsuliyyətsiz davranışlar tez-tez müşahidə olunur. Eqoizm, itaətsizlik, ərköyünlük, ictimai əlaqələrə girməkdə çətinlik çəkmək, zəiflik, başqalarını istədiklərini etməyə məcbur etmək, başqalarından istifadə etmək kimi davranışlar da müşahidə oluna bilər.

Ailə üzvləri uşağın istəyini yerinə yetirdiyi üçün uşaq bu vəziyyəti ümumiləşdirir. Ailəsindən kənar fərdlərin istədiklərini edəcəklərinə və ya istədikləri hər şeyin yerinə yetiriləcəyinə inanırlar. Amma faktlar başqadır. Uşaq kənar mühitə addım atdıqda işlərin evdəki kimi olmadığını görür və məyus olur. Bəzən istəkləri olmadığı üçün qabıqlarına çəkilirlər. Bu vəziyyət uşaqların dostluq münasibətlərində də özünü göstərir.

Sosial münasibətlərində istədikləri hər şeyin yerinə yetirilməsini, dostlarının da istədikləri kimi davranmasını gözləyirlər. Bu eqoist xüsusiyyət həm də dostluqda problemlər yaradır və digər uşaqların onları kənarlaşdırmasına səbəb ola bilər.

Bu münasibətlə valideynlərə tövsiyəmiz odur ki, uşağın hüquqlarına, rollarına və azadlığına hörmət etsinlər, onlara məsuliyyətli olmaq imkanı versinlər, məhdudiyyətlər qoysunlar.

Qətiyyətsiz valideynlik münasibətlərində özbaşına və dəyişkən təcrübələr diqqəti cəlb edir. Ailələr bəzən övladlarına həddindən artıq dözümlü yanaşsa da, bəzən onları sərt şəkildə cəzalandırır.

Müşahidə edirik ki, valideyn münasibətinin qeyri-sabit və qətiyyətsiz olduğu ailələrdə valideynlər arasında fikir ayrılıqları olur. Zaman-zaman ər-arvad arasında ixtilaf olan və ya böyük ailə kimi yaşayan ailələrdə tutarsız və qətiyyətsiz valideyn münasibəti müşahidə oluna bilər.

Bu münasibətlə böyüyən uşaq nəyin doğru, nəyin yanlış olduğunu bilmir. Uşaq qeyri-sabit və uyğun olmayan şəxsiyyət xüsusiyyətlərinin yaranmasına səbəb olan ziddiyyətli davranışlar nümayiş etdirə bilər. Bundan əlavə, valideynlərin nüfuzuna məhəl qoymamaq, özünə və cəmiyyətə qarşı hörmətsiz münasibət də müşahidə oluna bilər.



Valideynlərin uşaq tərbiyəsi və nizam-intizamı mövzusunda qərarlı olması və ortaq qərarlar verə bilməsi çox vacibdir. Beləliklə, təhsil və nizam-intizamda birlik yaranacaq, uşaq özünə və ətrafına faydalı olan qayda və davranışları daha tez öyrənəcək.

## Qoruyucu valideynlik

Qoruyucu valideynlik münasibəti uşağa əlavə qayğı və yardımı əhatə edir. Həddindən artıq qorunma və nəzarət uşaq üzərində üstünlük təşkil edir. Ana və atada daimi narahatlıq var. Ailələr uşaqların başına pis bir şey gələcəyindən narahat olduqları üçün nəzarətedici və qoruyucu yanaşmalar qəbul edirlər. Bütün bu davranışlar əvvəlcə uşaq haqqında düşünmək və uşağın xeyrinə hərəkət etmək kimi qəbul oluna bilər, lakin uşaqların müstəqil fəaliyyət göstərməsinin qarşısı alınır.

Həddindən artıq qoruyucu və şişirdilmiş sevgi ilə böyüyən uşaqlar həyata lazımi səviyyədə hazırlana bilmirlər. Onlar həyatdan öyrənməli olduqları bacarıqlara yiyələnmədən bəzi çətinliklərlə üzləşirlər və bu çətinliklərlə qarşılaşdıqda uyğunlaşmaqda çətinlik çəkirlər.

Asılı şəxsiyyət xüsusiyyətləri, müstəqil hərəkət edə bilməmək, daimi kömək istəmək, öz qabiliyyətlərindən aşağı performans göstərmək, təkbaşına bacara bilməyəcəklərini göstərən söz və davranışlardan istifadə etmək, məsuliyyət götürmək istəməmək, passiv davranış kimi xüsusiyyətlər həddindən artıq qoruyucu valideynlərin münasibəti ilə böyüdülmüş uşaqlarda tez-tez qarşılaşdığımız xüsusiyyətlərdir.

Valideynlərin ən mühüm vəzifəsi övladlarına gözəl nümunə olmaqla yol göstərmək, həyatda çətinliklərə qarşı mübarizə aparmaq və onların təkbaşına sağlam, xoşbəxt həyat sürmələri üçün lazımi imkanları təmin etməkdir.

## Laqeyd valideynlik

Laqeyd valideynlik münasibətinin ən mühüm xüsusiyyəti uşağın fizioloji və psixoloji ehtiyaclarını ödəməməsidir. Uşağa kifayət qədər diqqət yetirməmək, uşağın ehtiyaclarını bilməmək, uşaq tərbiyəsinə, nizam-intizamına fikir verməmək kimi davranışlar müşahidə edilir. Uşaqlar sevgiyə ən çox ehtiyac duyduqları anlarda rədd edilə və nifrət edilə bilər. Belə ailələrdə böyüyən uşaqlar müxtəlif psixoloji pozuntulara meyilli olurlar.

Uşaq diqqət və məhəbbət almaq üçün çox səy göstərir, lakin bu diqqət və sevgini ala bilməyəndə təslim olur. Ailəsindən uzaqlaşır və diqqət və sevgini kənardan axtarmağa başlayır. Akademik uğursuzluqlar, dostluq edə bilməmək, təhlükəli əlaqələr də bu zamanda müşahidə oluna bilər.

Ardı Səh. 7

# Valideyn-övlad münasibətləri: ONLARI TANIYIN!

Əvvəli Səh. 6

Əgər evdə pis rəftar varsa, uşaq bu pis rəftara məruz qalmamaq üçün ana və ataya uyğun davrana bilər. Çünki müqavimət gücü azdır. Lakin bu, uzunmüddətli perspektivdə valideynlərə qarşı düşmənçilik hisslərinin yaranmasına və ailədaxili ünsiyyət problemlərinin yaranmasına gətirib çıxarır.

Biganə və rəddedici valideyn münasibəti olan ailələr bu vəziyyəti dərhal fərq etməli və lazımi tədbirləri görməlidir. Çünki uşaqlar ailələrinin bu rəftarlarını gördükdə içəriyə dönür və bəzən qəzəb və aqressiya hisslərini özlərinə yönəldirlər. Bu vəziyyət depressiya və intihara cəhd kimi problemlərə səbəb olur.

Güvən verən, dəstəkləyici, demokratik valideynlik münasibətində ana və ata qəbuledici, tolerant və demokratikdir. Uşaq ailənin müəyyən etdiyi məhdudiyyətlər çərçivəsində azaddır. Özünü ifadə etməyə icazə verilir. Uşağa qeyd-şərtsiz sevgi və diqqət və dəyər verilir.

Təsdiqedici və dəstəkləyici valideyn rəftarları ilə böyüyən uşaqlar ətraflarına dəyər verən, özünə inamlı və hörmətli davranışlar sərgiləyən uşaqlar kimi böyüyürlər. Həddini bilən, öz hiss və düşüncələrini müdafiə edən, özü və ətrafı ilə barışıq olan, məsuliyyət daşıya bilən, sevildiyini və dəyərli olduğunun fərqində olan, başqalarını sevən və dəyər verən fərdlərdir.

Valideynlik münasibətlərindən danışmışkən ötən gün paytaxt Bakıda ata yol hərəkət qaydasını pozan oğlunu müdafiə edərək "sürüb, yaxşı edib", - deyə reaksiya verib. Bəs, valideyn övladının səhvini belə müdafiə etməlidirmi? Bu nə dərəcədə doğrudur?





**Psixoloq Zeynəb Eyyubova:** "Yəqin ki, həmin valideyn həmin anda bunu lazımlı bilib. Yəni özü üçün valideyn olaraq övladına dəstək xarakterli bunu deyib. Amma heç bir valideyn qanun pozan, qanuna riayət etməyən, problem yaradan uşağı dəstəkləməz. Sadəcə, həmin anda yəqin ki, vəziyyət bunu tələb edib ki, onu deyib.





Əlbəttə ki, bütün valideynlərin borcu ən birinci övladının səhvini özünün görməyi, özünün o səhvə qarşı dəstəkçi olmaq və özü elə etmək ki, uşaq vicdanına sığınıb bu işdən əl çəksin.

Ona görə də bütün valideynlərə səslənirəm və deyirəm. Övladınızda hər hansı bir səhv, problem gördükdə mütləq şəkildə özünüz bu məsələni həll edin və bu məsələnin həlli üçün də lazım olsa psixoloqlara müraciət edin".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Valideynin övladına arxa durması, ona dəstək olması təbii haldır. Amma bu, övladın püxtələşməsinə, həyatda layiq olduğu yeri tutmasına xidmət etməlidir.

Azərbaycanda valideyn-övlad münasibəti düzgün qurulmur. Bəzən valideyn yaşı əllini haqlamış övladı ilə uşaq kimi davranır. Uşağa əndazəsiz sevgi çox vaxt onun ərköyün böyüməsi ilə nəticələnir. Valideyn anlamalıdır ki, o, təkcə özü, ailəsi üçün deyil,



həm də cəmiyyət üçün övlad böyüdür. Onun böyütdüyü övlad cəmiyyətə xeyir verməli, kənar şəxslərlə eyni mühitdə yaşamağı, işləməyi bacarmalıdır. Azərbaycanda bəzən uşaqları balıq kimi akvariumda bəsləyirlər. Uşaq o akvariumdan, yəni, evdən çıxanda cəmiyyətə inteqrasiya olunmaqda çətinlik çəkir. Belə hallar böyük fəsadlara səbəb olur.

Azərbaycanda valideynlərin uşaqlara əndazəsiz canyananlığı çox vaxt onların tərbiyəsinin pozulmasına gətirib çıxarır. Valideyn azyaşlı oğlunun əlinə necə araq badəsi, siqaret verə bilər? Bu, təkcə nadanlıq deyil, həm də cinayətdir. Düşünürəm ki, bu cür neqativ hallarla bağlı birbaşa hüquq-mühafizə orqanları tədbir görməlidir. Heç kim inciməsin, bir çox hallarda uşağın tərbiyəsini valideyn pozur. Ailəsinin 5 üzvünü amansızcasına qətlə yetirən Əhməd Əhmədovun Azərbaycan cəmiyyətinə vurduğu yara hələ qaysaq bağlamayıb. Ortada bu cür dəhşətli nümunə var. Hamılıqla dərs çıxarmalıyıq".

Uşaqlarımızı tanımağa və anlamağa çalışaq. Onlar daim böyüyür və inkişaf edir. Övladlarımıza qarşı möhkəm və qətiyyətli olmaqdan vaz keçməyək. Kiçik səhvləri böyük bir fəlakət kimi şərh etməyək, əgər düzgün davranışı öyrətmək istəyiriksə, bu davranışı özümüz nümunə götürək. Uşaqlarımızın səhvlərini aşan cəzalardan qaçaq. Gəlin gözləntilərimizi uşaqlarımızın qabiliyyətlərinə və inkişaf xüsusiyyətlərinə uyğun formalaşdıraq. Başqaları ilə müqayisə etməyək. Əgər onlara qarşı yanlış hərəkət etmişiksə, üzr istəməkdən çəkinməyək. Çünki övladımız qarşıdakı illərdə səhv edəndə üzr istəməyi bacarmalıdır.

Özünə güvənən, həyatdan nə gözlədiyini bilən, özünə, ətrafına, insanlara, heyvanlara və bütün canlılara hörmət etməyi bilən, mübarizəni heç vaxt dayandırmayan, pozitiv düşünən uşaqlar yetişdirməyi ümid edirik...

***Ayşən Vəli***

# Gözdən pərdə asmaq üçün İMİTASİYA

Ermənistanda küçə nümayişləri başlayan andan, Kremlin kadrı olan Serj Sarkisyanın küncə qısıldığı vaxtdan və ardınca da əli sarıqlı, beli çantalı nümayişçi, Qərbin layihəsi olan Nikol Paşinyanın hakimiyyəti ələ keçirdiyi zamandan Moskva ilə İrəvan arasında münasibətlərin tamamilə fərqli bir məcrada olması barədə düşünənlər bu günə qədər çoxluq təşkil edib. Çünki belə görünürdü ki, guya Rusiya Ermənistanı tamamilə özündən uzaqlaşdırıb və Moskvanın bir də İrəvana hansısa dəstək barədə düşünməsi heç ağıla da belə gəlməzdi. Amma hadisələrin gedişi, xüsusən də Rusiya tərəfindən Ermənistana hərbi dəstək təsdiq etdi ki, heç də hər şey göründüyü kimi deyilmiş və müşahidə edilənlər gözdən pərdə asmaq üçün olan imitasiya imiş.











## Nəyə görə gözdən pərdə asmağa ehtiyac duyulub?

Yəqin ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun, eləcə də nazirliyin sözçüsü Mariya Zaxarovanın və digər rəsmilərin Ermənistan əleyhinə danışarkən necə od püskürdüklərini hər kəs çox yaxşı xatırlayır. Şəxsən Rusiya XİN rəhbərinin çıxışlarında hansı şəkildə kəskin fikirlərin səsləndirildiyi də unudulmayıb. Yaxud da, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın İrəvana ünvanladığı oldu-alovlu mesajları da yaddan çıxmayıb. Hətta hər bir Rusiya rəsmisinin Ermənistan əleyhinə belə mesajlar səsləndirməsinin ardınca əks tərəfin də, yəni rəsmi İrəvanın da, erməni mediasının da, erməni cəmiyyətinin də onların dediklərinə kəskin cavab reaksiyasının da şahidi olmuşuq. İndi bütün bunlar hərbi dəstəyin fonunda bir oyunun gedişləri kimi görünür və həqiqətən də ikrah hissi doğurur. Bu qədər saxtakarcasına bənzətmə, bu qədər imitasiya nəyə lazım idi və görəsən nəyə görə gözdən pərdə asmağa ehtiyac duyulub?

Maraqlıdır, əgər Rusiya hərbi bazasının Ermənistandan çıxarılması məsələsi ilə bağlı İrəvan dəfələrlə Kremli qıcıqlandırıbsa, Ermənistan ictimaiyyəti, erməni mediası işğalçı ölkənin bütün uğursuzluqlarında Moskvanı günahkar bəlləyibsə və bunu açıq şəkildə də bəyan edibsə, Rus dili, Rusiya kanalları yığışdırılıbsa, ruslara qarşı antipatiya daşlar ölkəsində hədsiz dərəcədədirsə, Rusiyanın hərbi, yaxud hansısa dəstəyini necə başa düşək? Ümumiyyətlə, Rusiyaya qarşı bu qədər, yəni dözülməz həddə olan nifrətin fonunda indi rusların ermənilərə yardımı nə deməkdir? Bu vaxta qədər ermənilərin ruslara etdikləri bunca xəyanətdən sonra bu nə münasibətdir axı Rusiya tərəfindən? Bunlar bir tərəfə, bəs bu qədər rəsmilərin, ən yüksək ranqa sahib məmurların, tanınmış siyasətçilərin ermənilər, bütövlükdə Ermənistan əleyhinə dediklərinə nə ad qoyaq? Şəxsən Rusiya Federasiyasının prezidenti Vladimir Putinin erməni baş nazirə münasibətdə belə saymazyana tərzini, hətta yeri gələndə hörmətsizliyini, onu gülüş hədəfinə çevirən sarkazmlarını, ironiyalarını dəfələrlə müşahidə etmişik və təkcə biz yox, bunları müşahidə edən hər kəs eyni qənaətdə olub ki, rusların artıq erməniləri görən gözləri belə yoxdur. Sən demə, bütün bunlar saxta şəkldə bənzətmədən, yəni imitasiyadan başqa bir şey deyilmiş və saxtakarlıqlar indi artıq üzə çıxmaqdadır.

## Ermənistan hakimiyyəti hiyləgərcəsinə saxtakarlıq və riyakarlıq edərək, Qərbi, ABŞ kimi bir dövləti aldadıb

Ermənistanın da, Paşinyanın özünün də öz növbəsində kifayət qədər saxtakarlıq və riyakarlıq etdiyini görməmək mümkün deyil. Bütün məğlubiyyətlərində, ələlxüsus da 44 günlük savaşda rüsvayçı məğlubiyyətlərində Rusiyanı günahkar hesab etdiyini, hayların düçar olduqları rüsvayçı vəziyyətə görə bütün günahların Moskvada olduğunu erməni baş nazir Nikol Paşinyan bildirməklə bir neçə istiqamətdə hiyləgərlik etdi. Əvvələ, uğursuzluqlara, məqlubiyyətə görə məsuliyyəti üzərindən götürmək üçün bu fikir, yəni Kremli günahkar bəlləmək fikri daxili auditoriyaya hesablanmışdı. Yəni, erməni baş nazir kütlənin nifrətini özündən uzaqlaşdırmaq üçün belə hiyləgərcəsinə addım atırdı və özünün hədəf olmaması üçün bunu etdi. Onun bu addımlarını məhz öz hakimiyyətini, hakimiyyət kürsüsünü qorumaq üçün atdığını görməmək mümkün deyil və küçə nümayişləri sayəsində baş nazir kürsüsünü ələ keçirən küçə nümayişçisinin hakimiyyət hərisliyi göz önündədir.

Məsələ burasındadır ki, hər bir uğursuzluqda, hər məğlubiyyətdə günahın Rusiyada olduğunu bəyan edən Nikol Paşinyan dolayısı ilə guya Moskvanı hədəfə aldığı görüntüsü yaradırmış. Daha dəqiq desək, bununla guya Rusiyanı düşmən hesab etdiyi barədə fikir formalaşdırmağa çalışırmış. Yəni, Paşinyan hakimiyyəti saxtakarcasına imitasiya edirmiş və Rusiyadan uzaqlaşma imitasiyası ilə ABŞ və Qərbin həm maliyyə, həm də hərbi-siyasi dəstəyini əldə etməyi planlaşdırırmış. Bir sözlə, Paşinyan hakimiyyəti ABŞ və Qərbi aldadaraq, Ermənistanın sürətlə silahlandırılması prosesinə start verməyə nail ola bilib. Daha dəqiq desək, Ermənistan hakimiyyəti hiyləgərcəsinə saxtakarlıq və riyakarlıq edərək, Qərbi, ABŞ kimi bir dövləti aldadıb.

## Rusiya-Ermənistan hərbi müttəfiqliyi davam edirsə, deməli, pərdə arxasında "mənzərə" tamamilə fərqlidir

Rusiyanı düşmən kimi qəbul etdiyini göstərən, bununla da Qərbi və ABŞ kimi bir dövləti hiyləgərcəsinə aldadaraq, özünün sürətlə silahlanması üçün böyük riyakarlıq edən Ermənistan, əslində, pərdə arxasında tamamilə fərqli şəkildə, özü də saxtakarlıqla müxtəlif hədəfləri ön planda saxlayıb və çox hiyləgər bir imitasiya edib. Guya Qərbə sədaqətli olaraq, Rusiya ilə münasibətlərini tamamilə qırmaq niyyətində olduğunu nümayiş etdirən İrəvanın heç də Moskva ilə münasibətlərini "korlamaq" niyyətində olmadığı artıq üzə çıxır. Əslində, çoxdandır bir sual hər zaman düşündürürdü ki, görəsən nəyə görə Rusiya məhz Ermənistanın xəyanətkarlığına, ruslar əleyhinə olmasına bu qədər dözümlülük nümayiş etdirir və niyə hələ də İrəvan, şəxsən Paşinyan hakimiyyəti Kreml tərəfindən cəzalandırılmır? İndi artıq bəlli olur ki, hayların, Ermənistan hakimiyyətinin imitasiya etdiyi məhz ruslar üçün sirr deyilmiş. Çox gümün ki, bu, üstəlik birgə imitasiyadır. İstənilən halda, əgər iki dövlətin birbirinə rəqib kimi davranmasının müşahidə edilməsi fonunda münasibətlər davam edirsə və davamlı şəkildə hansısa dəstək varsa, deməli, qalan bütün oyunlar imitasiyadan başqa bir şey sayıla bilməz. Xüsusən də, Rusiya-Ermənistan hərbi müttəfiqliyinin davam etdiyi müşahidə edilirsə, belə çıxır ki, pərdə arxasında "mənzərə" tamamilə fərqlidir.

## Ermənistanın Rusiya ilə ortaq və planlı şəkildə imitasiyası

Bildiyimiz kimi, Rusiya məhz Ukrayna ilə müharibəyə start verdikdən sonra qlobal sanksiyalara məruz qalıb və həmin sanksiya rusların hərbi sənayesinə də təsirsiz ötüşməyib. Ən azından, Qərb tərəfindən tətbiq olunan sanksiyalar sayəsində rusların hərbi sənayedə istifadə olunan elektron detallara əlçatanlığı minimuma enib və bunun təsirlərini Kreml çox yaxşı başa düşüb deyə, haylardan alət kimi istifadə edib. Beləki, Ermənistanın Qərb ölkələrindən idxal etdiyi, hayların da gizli şəkildə həmin detalları böyük qardaşlarına, ruslara göndərdikləri üçün Rusiya hərbi sənayesini dayandırmayıb, əksinə, inkişaf etdirib. Daha açıq və sadə dillə desək, Rusiya özü də Ermənistanla birgə hiyləgər oyunlarda yaxından iştirak edib və iki ölkə arasında guya yaranan narazılıq, hətta qarşıdurma, belə çıxır ki, ortaq və planlı imitasiya, ikibaşlı oyun imiş.

Sözsüz ki, statistik göstəricilər belə ortada birgə, ortaq, planlı imitasiyanın olduğunu təsdiq edir. Məsələn, Ermənistanın Rusiya ilə əlaqələrində ticarət dövriyyəsinin, eləcə də həmin dövriyyədən gələn gəlirlərinin artmasına nəzər saldıqda görürük ki, əlaqələr heç də zəifləməyib və azalmayıb, əksinə, artıb. Qərb ölkələrindən, Amerikadan elektron detalların timsalında digər sanksiyaya məruz qalan məhsulları idxal edərək, Rusiyaya daha baha satan Ermənistan tərəfi əlbəttə ki, "ticarət"dən qazanmış olur. Rusiya da öz növbəsində hərbi sənayesinə lazım olan, lakin sansiyaya məruz qalan detalları "böyük razılıqla" Ermənistandan baha qiymətə almaqda qazandığını zənn edir. Buna görə də həmin idxal və satış məsələsində hər iki tərəf maraqlıdır və hayların ruslarla planlı şəkildə "əməkdaşlığı" ortaq maraqlar üzərində qurulub və Kreml də bundan məmnundur deyə, Rusiya da haqqında qeyd olunan imitasiyadan qətiyyən imtina etmək istəyində belə olmayıb. Əksinə, ortaq və planlı şəkildə imitasiya hər iki tərəfi qane edib və indi rusların hayları hərbi baxımdan dəstəkləməsi, silahlandırması tamamilə başadüşüləndir. Ona görə ki, eyni oyunun oyunçularıdırlar və Qərbi, Amerika kimi hegemon, "yekə" bir dövləti birlikdə aldadıblar və bunun fonunda Rusiyanın Ermənistana silah göndərməsi oynadıqları oyunun dəyişməz şərtləridir. Qalan bütün görünənlər isə gözdən pərdə asmaq üçün olan imitasiyadır.

***İnam Hacıyev***

# Bütöv Azərbaycanımızda ŞƏHƏRLƏR GÜNÜ

## Dövlət başçısının Sərəncamı ilə 20 sentyabr Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd ediləcək



***Vətən müharibəsində 44 gün ərzində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz böyük döyüş yolu keçdi. Dövlət başçımızın bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi: "Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir".***

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü göstərə bildi. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sıgırt, Sukurataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", deyən Azərbaycan Prezident Cənab İlham Əliyevin bu qürürverici ifadələri tarixə həkk olundu. Cənab Prezident onu da qeyd edib ki, bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq!: "Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!".

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti Azərbaycan tarixində yeni gün oldu. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

### AĞDƏRƏ, XOÇAVƏND, XOCALI VƏ XANKƏNDİDƏN SEPARATÇILARIN QOVULMASI İLƏ ÖLKƏMİZİN SUVERENLİYİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜ TAM BƏRPA OLUNDU

Ötən ilin sentyabrın 19-da antiterror tədbirləri keçirildi. Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyatın əsas məqsədi Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi, onların hərbi obyektlərinin məhv edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi. Əməliyyat zamanı Azərbaycan Ordusu müasir hərbi texnika və yüksək dəqiqlikli vasitələrdən istifadə edərək strateji mövqelərdə yerləşdirilmiş qanunsuz erməni silahlı qüvvələrini sıradan çıxardı. Beləliklə, Ağdərə, Xoçavənd, Xocalı və Xankəndidən separatçıların qovulması ilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu.

1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Xocavənd şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizləndi. Müasir Azərbaycan ordusu öz gücünü, məharətini, peşəkarlığını istənilən vəziyyətdə nümayiş etdirir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Xocalı rayonunun Əsgəran qəsəbəsi öz azadlığına qovuşub. Ötən ilin sentyabrında Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Əsgəran qəsəbəsi də separatçılardan təmizləndi. Bu gün orada Azərbaycan bayrağı dalğalanır.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalıda törədilən əməllər ümumbəşəri dəyərlərə tamamilə ziddir. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirmiş oldu. Ötən ilin oktyabrın 15-də dövlət başçımızın Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması tarixi bir günə çevrildi. "Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir".

### "BİZ BU QƏLƏBƏNİ HƏM PEŞƏKARLIQ, QƏHRƏMANLIQ HESABINA, EYNİ ZAMANDA, MİLLİ RUH HESABINA QAZANMIŞIQ"

Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncam imzalayıb. Dəyişikliyə əsasən, 20 sentyabr tarixi Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd ediləcək.

Mədəniyyət Nazirliyinə Azərbaycan Respublikası Prezidentinin aidiyyəti xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

Nazirlər Kabineti isə Sərəncamdan irəli gələn məsələləri həll edəcək. Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olunub və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycanda hər il 26 avqust - Laçın şəhəri günü, 4 oktyabr - Cəbrayıl şəhəri günü, 17 oktyabr - Füzuli şəhəri günü, 20 oktyabr - Zəngilan şəhəri günü, 25 oktyabr - Qubadlı şəhəri günü, 8 noyabr - Şuşa şəhəri günü, 20 noyabr - Ağdam şəhəri günü, 25 noyabr - Kəlbəcər şəhəri günü kimi təntənəli şəkildə qeyd olunur.

Bildiyimiz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi ATƏT çərçivəsində başlamışdır. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində əməli addımlar atdı. Bu münaqişənin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul olunmuş sənəd və qərarlar əsasında davam etdirildi. İllərlə davam edən danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. "Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı", - deyə Azərbaycan Prezidenti bildirib.

44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Azərbaycan ordusunun gücü, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi nəticəsində təcavüzkar ermənilər torpaqlarımızdan təmizləndi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında artıq uduzduğunu ilk günlərdən dərk etdi. "Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi - Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik", - deyə Cənab İlham Əliyev bildirmişdir.

### QARABAĞ REGİONUNA 2026-CI İLƏ QƏDƏR 140 MİN İNSAN DÖNƏCƏK

Öz torpaqlarında Vətən müharibəsinə qalxan Azərbaycanın gücünü təkcə məğlub, işğalçı Ermənistan deyil, bütün dünya gördü. Bu gün Böyük qayıdışımız uğurla yerinə yetirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb və Böyük Qayıdış Proqramı qəbul edilib. Birinci mərhələdə əsas vəzifə 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıblar. Belə ki, Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində, Laçın şəhərində, Füzulidə, Şuşada əzəli sakinlər yurd salıblar. 30 ilin həsrətinə, ağrı və acısına son qoyuldu. Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Həmin ərazilərin hər bir daşı, qayası, çayı bu səslər üçün qəribsəmişdi. Şəhər, kənd və qəsəbələr yenidən qurulur. Cənab İlham Əliyev bildirib ki, 30-dan çox şəhər və kəndin Baş planı təsdiqlənib, bir çox kəndlərin təməli də qoyulub. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

Bəli, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı. Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# AXCP-nin parçalanması real görünür

## Partiyanın Rəyasət Heyətinin üzvü Asif Yusifli Əli Kərimlinin siyasətinə etiraz əlaməti olaraq istefa verdi



Dağıdıcı müxalifətin və xaricdəki antimilli ünsürlərin Azərbaycanın dövlət maraqlarına qarşı birgə hədyanlar danışmaları və qarayaxma kampaniyası aparmaları dünya azərbaycanlıları arasında hiddət və qəzəb doğurur. İnsanlar haqlı olaraq onların sərt şəkildə cəzalandırılmasını tələb edirlər. Ancaq nə etmək olar ki, ölkəmizin demokratik dəyərlərə və prinsiplərə xüsusi önəm verməsi şivənçilərə qarşı hüquqi tədbirlər görməyə imkan vermir. Digər tərəfdən milli varlığımıza qarşı şər və böhtanlar səsləndirən məxluqların bəziləri erməni lobbisinin, bəziləri də Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən ölkələrin qaranlıq dairələrinin arxasında gizlənib hədyanlarını ifadə edirlər. Lakin cəmiyyətdə bir əminlik var ki, gec-tez müxtəlif məkrli qüvvələrin əlində alət olub, Azərbaycana qarşı erməni maraqlarına söykənən fikirlər söyləyənlər və fəaliyyət göstərənlər mütləq layiq olduqları cəzalarını alacaqlar. Onları bağışlamaq və ya onların etdiklərini unutmaq mümkün deyil. AXCP sədri Əli Kərimlinin və Milli Şuranın sədri Cəmil Həsənlinin Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi ilə bağlı ABŞ Senatına müraciət ünvanlamalarını unutmaq olar? 44 günlük Vətən müharibəsində cəmiyyətin bütün təbəqələrinin düşmənə qarşı birləşdiyi halda Cəmil Həsənlinin, Əli Kərimlinin, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbərin və Arif Hacılının fərqli mövqe sərgiləmələrini yaddan çıxartmaq olar?

### Susmaq qızıl deyil, çarəsiz duruma düşmək və reallığı qəbul etmək deməkdir

Fransanın Azərbaycana qarşı tutduğu irticaçı mövqe hər kəsə məlum olduğu halda Cəmil Həsənli və Əli Kərimli Fransa Senatına təbrik məktubu ünvanlayıblar. Ona görə yox ki, Fransa prezidenti E.Makronun rəhbərlik etdiyi siyasi partiyanın Avropa parlamentinə keçirilən seçkilərdə uduzub. Ona görə ki, guya fəaliyyəti dönəmində uğurlu fəaliyyət göstərib. Ancaq anlamırlar ki, Fransa Senatı Ermənistan üzərində hərbi qələbədən dərhal sonra Azərbaycana qarşı əndərəbadi qətnamə qəbul edib. Fransa deyildimi Azərbaycanın tanınmış şairəsi Xurşidbanu Natəvanın abidəsinə qarşı vandal hərəkətləri edən? Azərbaycan jurnalistlərinin Fransada təqib olunmasından, onların informasiya toplamaq və yaymaq hüquqlarının kobud şəkildə pozulmasından bəyəm Ə.Kərimli və Cəmil Həsənli xəbərsizdirlər? Bilmirlər ki, Fransa hakimiyyəti "Azərtac" Dövlət Agentliyinin jurnalistini şengel ərazisinə buraxmaqdan imtina edib? Suallar çoxdur, lakin bir həqiqət var ki, bu gerizəkalı məxluqlar bu suallara cavab vermək imkanına malik deyillər. Bəlkə də müstəqil olsalar nəsə deyib, vəziyyətdən çıxmağa çalışarlar. Lakin hərəsi bir ünvana bağlı olduqlarından cəmiyyətin haqlı tələblərinə və suallarına cavab vermirlər, belə demək olar ki, susurlar. Susmaq isə qızıl deyil, çarəsiz duruma düşmək və reallığı qəbul etmək deməkdir. Hazırda İsveçrədə yaşayan, keçmiş müsavatçı Elbəyi Həsənli haqlı olaraq Ə.Kərimlini və ətrafında olanları yanlış yol tutmaqda günahlandırıb: "AXCP Azərbaycanın gələcəyini necə görür? Bu partiyanın funksionerlərinin bəyanatlarından, müsahibələrindən mən belə başa düşürəm ki, AXCP Türk Dünyasına yox, daha çox Qərbə inteqrasiyaya meyillidir. Yəni Azərbaycan Türk Dünyasının yox, məhz Qərbin bir parçası olmalıdır". E.Həsənli əlində olan faktlara istinadən Əli Kərimlini və onun əqidə dostlarını Qərbin maraqlı dairələrinin sifarişi əsasında Türkiyə hakimiyyətinin siyasətini bəyənməmək də ittiham edir: "Bizim demokratlar nədən Türk Dünyasını bəyənmirlər? Axı AXC yarandığı gündən daima Türk Birliyinə çağırış edib. Mərhum Əbülfəz Elçibəy təpədəndırnağa türk millətçisi idi. Özünü Atatürkün əsgəri hesab edirdi. Nədən AXCP belə bir ideoloji transformasiyaya məruz qalıb? Məncə, səbəb çox sadədir. AXCP zənn edir ki, onlar yalnız Amerikanın, bütövlükdə isə Rusiyanın təbiri ilə desək, kollektiv Qərbin dəstəyi ilə iqtidara gələ bilərlər. Ona görə də Qərbdən bərk yapışıblar. Əminəm ki, iqtidar Türk Dünyasına bu qədər önəm verməsə idi, AXCP Qərbə bu qədər meyil göstərməzdi. Yəni siyasi çıxarları naminə belə bir yol tutublar".

### Əli Kərimlidən narazı olanlar AXCP-ni tərk edir

Söz yox Əli Kərimlinin yarıtmaz siyasəti uzun müddət davam edə bilməz. Yəni elə cəbhəçilərin özləri Ə.Kərimlidən imtina etməklə, AXCP-ni xilas edə bilərlər. Artıq bununla bağlı AXCP-dəki çoxluq geniş və əhatəli fəaliyyətə başlayıblar. Xüsusilə də, AXCP MNTK-nın sədri Aydın Əliyev partiya daxilində Ə. Kərimliyə qarşı müqavimət qrupu yaradıb. Bununla kifayətlənməyən Aydın Əliyev xüsusi ittiham qaydasında Əli Kərimli haqqında məhkəmədə iddia qaldırıb. Qanunvericiliyə əsaslansaq, o zaman o fikri vurğulamaq olar ki, Ə.Kərimli həbs olunacaq. Ən azı ona qarşı inzibati cəza tətbiq ediləcək. Bunu özünü hüquqşünas olaraq cəmiyyətə sırımağa çalışan Ə. Kərimlinin özü də yaxşı anlayır. Ona görə də, səfirliklərə üz tutaraq onlardan həbsinin qarşısının alınmasında yardımçı olmalarını xahiş edir. Hətta bir qədər əvvəl Əli Kərimlinin Piter Mixalko ilə keçirilən görüşündə ondan həbsinin aradan qaldırılmasına yardımçı olmasını xahiş edib. Maraqlıdır ki, onun acizliyi, qorxaqlığı AXCP daxilində təəccüb doğurub. Əksər cəbhəçilər belə bir sədrin rəhbərliyi ilə qarşıya qoyulan məqsədlərə çatmağın mümkünsüz olduğunu bəyan edir və partiyadan istefa verirlər. Dünən Ə.Kərimlinin qorxaqlığına və zəifliyinə, eləcə də səhv siyasət aparmasına etiraz əlaməti olaraq AXCP Rəyasət Heyətinin üzvü Asif Yusifli partiyadan istefa verdiyini bəyan edib. Asif Yusifli açıq şəkildə bildirib ki, uzun illərdir ki, heç bir uğurlu nəticə əldə edə bilməyən partiyada qalmaq vaxt itirməkdən başqa bir şey deyil. Asif Yusifli Ə.Kərimlinin sentyabrın 1-də keçirilən parlament seçkilərini "Boykot" qərarının onun ən böyük səhvi və yanlış mövqeyi olduğunu bildirib: "Bu gündən etibarən AXCP üzvlüyündən istefa verirəm. Çıxmağımın səbəbi nədir? Xroniki boykot. Fəaliyyətimi müstəqil olaraq davam etdirəcəm. Növbəti addımlarım haqda ictimaiyyətə məlumat verəcəm".

Görünən ondan ibarətdir ki, artıq AXCP-dən istefaların yeni dalğası başlayıb. Baş verən istefalar AXCP-nin dağılmasına gətirib çıxaracağı şübhəsizdir. Çünki Ə.Kərimli sədrlikdən könüllü şəkildə istefaya getmək fikrində deyil. Bu isə o deməkdir ki, Ə.Kərimlinin yanlış siyasətindən narazı olanlar artıq partiyada qalmağı yersiz və əhəmiyyətsiz hesab edirlər. Ona görə də birlik və bərabərlik nümayiş etdirməklə AXCP-dən istefa verəcək və bununla da Ə.Kərimliyə etirazlarını nümayiş etdirəcəklər.

***İLHAM ƏLİYEV***

---




## ""Əsrin Müqaviləsi"nin Azərbaycan iqtisadiyyatına böyük dəstəyi var"

"20 sentyabr Azərbaycan tarixində mühüm günlərdən biridir. Çünki müstəqil dövlətçiliyimizin iqtisadi əsaslarının təməlini təşkil edəcək "Əsrin Müqaviləsi" məhz həmin tarixdə imzalanmışdır. "Əsrin Müqaviləsi" çox çətin şərtlər daxilində, ağır bir zamanda, Azərbaycanın müxtəlif təzyiqlərə məruz qaldığı bir dövrdə böyük dövlət xadimi Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi, ona olan etimadın hesabına imzalanmış müqavilədir. Şübhəsiz ki, bu həm də mühüm siyasi hadisə idi. Çünki ilk dəfə olaraq Xəzər neftinin Rusiyadan kənar ərazilərdə, qardaş Türkiyə və Gürcüstan vasitəsilə Avropaya çıxmasını təmin edəcəkdi. Həmçinin sonrakı mərhələdə bu gün əldə etdiyimiz bütün nailiyyətlərin əsasında duracaqdı". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Hikmət Babaoğlu deyib. O bildirib ki, "Əsrin Müqaviləsi" Azərbaycan iqtisadiyyatının inkişafına təkan verməklə güclü dövlət və güclü ordumuzun yaranmasına gətirib çıxardı: "Nəticədə isə torpaqlarımız işğaldan azad edildi. Azərbaycanı qüdrətli edən, müstəqil siyasət həyata keçirməsini təmin edən əsaslardan biri "Əsrin Müqaviləsi" oldu. Bu səbəbdən də həmin tarix həm neftçilərin bayram günüdür, həm də Azərbaycan tarixində mühüm hadisələrdən biridir.Bu gün də "Əsrin Müqaviləsi"nin Azərbaycan iqtisadiyyatına olduqca böyük dəstəyi var."

***Səbinə Hüseynli***

---



MƏTANƏT

## Layladır, sevgidir, məlhəmdir, Zəfərdir, Azərbaycan musiqisi...

***Həyatda ilk dəfə eşitdiyimiz səsdir, Azərbaycan musiqisi. Başımız üzərindəki anadır, dilindəki laylaydır, Azərbaycan musiqisi... Səsləndikcə həzin-həzin qulaqlarımıza axan, ruhumuza sığal, gözlərimizə xumardır, Azərbaycan musiqisi. Anamızın gözlərindən axan, ürəyimizə dolan sevgidir, Azərbaycan musiqisi...***

Təbiətin dörd fəslidir, Azərbaycan musiqisi... Bahardır, quşların cəh-cəhi, suların bəzən lal, bəzən şaqqıltılı axışı, çəmənlərin, düzlərin ahəstə mehlə titrəşən gül-çiçəyidir, Azərbaycan musiqisi...

Yaydır, isti havada ürəklərə dirilik gətirən buz bulaqlardır, sıx yaşıllıq, bu yaşıllıqların istini dəf edən sərinidir, bu fəslin min bir rənginin harmoniyasıdır, Azərbaycan musiqisi.

Payızdır, küləyin qarşısına alıb qovduğu yarpaqların xışıltısı, təbiətin rəngarəng mövsümü olan bu fəslin romantikasıdır, Azərbaycan musiqisi...

Qışdır, günəşin bəmbəyaz qarın üzərində yaratdığı ulduzlardır, sanki kiçik oktavadan-bahardan üzü yuxarı qalxan, davam edə-edə qışda-son oktavada tamamlanan melodiyadır, Azərbaycan musiqisi...

Dənizdir, bəzən lal sükutla, bəzən ağıllı, bəzən dəli, amma hər halı ilə gözümüzü, ruhumuzu, duyğularımızı oxşayan dalğadır, Azərbaycan musiqisi...

Sarı Aşığın, Ələsgərin, Abbasın, Ululu Kərimin, Miskinli Vəlinin, Pərinin, Zülfiyyənin, Ulduzun və saymaqla bitməyən yüzlərlə sazlı-sözlü aşığımızın sinəsinə sıxıb saatlarla anlatdığı qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbənd, təcnisdir, sazla sözün vəhdətidir, Azərbaycan musiqisi...

Seyidin, Xanın, Bülbülün, Cabbarın, İslamın, Zülfünün, Hacıbabanın, Arifin, Canəlinin, Alimin və adlarını sadalaya biləcəyimiz onlarla xanəndənin avazındakı muğamdır, təsnifdir, əllərindəki qavalda ritmdir, Azərbaycan musiqisi...

Sadıqcanın, Qurbanın, Məşədi Cəmilin, Mirzə Mənsurun, Əhmədin, Bəhramın, Elmanın, Habilin tar və kamançalarındakı sarı simdir, Azərbaycan musiqisi. Səsləndikcə qulaqlardan ürəklərə axan, bir andaca anaya, ataya, sevgiliyə, balaya, Vətənə, yurda, torpağa çevrilərək doğmalaşan sevgidir, Azərbaycan musiqisi...

Xalqın paklığını, yüksək mənəviyyatını, daxili aləmini, arzularını, ümidlərini özündə əks etdirən mahnıdır, Azərbaycan musiqisi. Şövkətin, Saranın, Rübabənin, Rəşidin, Gülağanın, Qədirin, Məmmədbağırın, Teymurun və saatlarla saya biləcəyimiz onlarla müğənnilərimizin qəlblərə məlhəm səsidir, Azərbaycan musiqisi. Və bu müğənnilərin ölkə-ölkə gəzdirdiyi, sevdirdiyi, tanıtdığı sənətidir, Azərbaycan musiqisi...

"Yallı", "Sarı gəlin", "Uzundərə", "Qaytağı", "Heyvagülü", "Qazağı", "Mirzəyi", "Turacı", "Tərəkəmə", "Ceyranı", "Qaytağı", "Xançobanı", "Süzmə", "Kəsmə", "Atlanma", "Çolağı" və onlarla bir-birindən gözəl rəqslərimizdəki süjetdir, çeviklik, qıvraqlıq, plastik hərəkətlərdir, Azərbaycan musiqisi...

"Leyli və Məcnun", "Şeyx Sənan" , "Rüstəm və Söhrab", "O olmasın, bu olsun", "Fərhad və Şirin", "Aşıq Qərib", "Şah İsmayıl", "Nizami", "Sevil" və onlarla belə operalarımızdakı libretto, musiqi-dram vəhdəti, solo və xor, simfonik orkestrdir, Azərbaycan musiqisi...

"Qız qalası", "Yeddi gözəl, "Məhəbbət əfsanəsi", "Min bir gecə", "Xeyir və şər", "Qarabağ harayı", "İldırımlı yollarla", "Şeyx Sənan", "Cavad xan", " Dədə Qorqud" və saymaqla bitməyən baletlərimizdəki xoreoqrafiyadır, Azərbaycan musiqisi...

Vətənpərvərliyə-igidliyə, ərliyə, qəhrəmanlığa səsləyən hərbi mahnı, marşdır, Azərbaycan musiqisi. Elə qəlbimizdəki bu musiqi 44 günlük Vətən müharibəsində biləyimizdəki gücə çevrildi. Azərbaycan musiqisinin beşiyi Qarabağı işğaldan azad etdik. Bu, tək ərazi bütövlüyümüzün bərpası deyildi. Həm də elə Azərbaycan musiqisinin xilası idi, deyilmi?.. Biz torpağımızı da, bu torpağın yetirib-bitirdiyi hər şeyi düşməndən geri aldıq. Düşmən üzərində tarixi Zəfər çaldıq. Və indi qürurla deyə bilərik ki, Zəfərdir, Azərbaycan musiqisi...

# Hayastanın Aİ-yə üzvlüyü: Real gələcək, yoxsa xam xəyal?..

**Yaxın illərdə Ermənistanın Avropa İttifaqına üzvlüyündən bəhs edilməyəcək, bu məsələ ilə bağlı Avropanın əsas siyasi qüvvələrinin heç bir baxışı, vədi yoxdur**

Ermənistanın Avropa İttifaqına (Aİ) üzvlük məsələsi son günlərdə nəinki regionun, hətta digər xarici ölkələrin, Beynəlxalq qurumların diqqət mərkəzindədir. Ermənistan parlamentinin sədri Alen Simonyanın sözügedən məsələ ilə bağlı söylədikləri, eləcə də bununla Ermənistanın öz təhlükəsizliyini təmin edəcəyini vurğulaması siyasi aləmdə böyük rezonansa səbəb olub. Artıq Ermənistanın baş naziri Nikol Paşinyan da ölkəsinə Aİ-yə üzvlüklə bağlı vəd verib. Amma bunun da Hayastan liderinin xalqına söylədiyi növbəti yalan olacağı istisna deyil. Əslində Qərbin özünün belə Ermənistanın Avropa İttifaqına qoşulması ilə bağlı heç bir planı yoxdur. Brüsselin əsas məqsədi Ermənistanın Ukrayna kimi özünə "inteqrasiya" etməsinə nail olmaqdır. Amma Ukraynaya verilən vədin də nəticələri hər kəsə məlumdur. Vaxtilə rəsmi Kiyevə Avropa İttifaqına üzv olacağı barəsində verilən söz tutulmadı və Ukrayna meydanda təkbaşına qaldı. Uzun müddətdir davam edən Rusiya-Ukrayna müharibəsi nəticəsində isə ölkə ərazilərinin xeyli hissəsini itirdi. Hazırda müharibədən canını qurtarmış milyonlarla insan öz torpaqlarını tərk edərək Avropaya sığınıb. Qərbin "alovlandırıcı" mövqeyini nəzərə alsaq, müharibənin də tezliklə başa çatacağı gözlənilmir. Hazırda Qərbin Aİ-yə üzvlük məsələsini ortaya atması "Ukrayna ssenarisi"ni Ermənistan üçün də həyata keçirmək istəyi ilə əlaqəlidir. Digər tərəfdən, Qərb bu cür vədlər verməklə Hayastanla Rusiya arasındakı bağları tamamilə qırmaq istəyir.

Təsadüfi deyil ki, bu günlərdə İrəvan və










Brüssel viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlara başlamaq fikrindədirlər. Faktiki olaraq Ermənistan Avropa İttifaqı ilə gündəlikdə duran məsələləri genişləndirir. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan Avropa Komissiyasının sədr müavini Marqaritis Shinas ilə görüşündə deyib. Paşinyan Ermənistanın real olaraq Avropa İttifaqı ilə münasibətlərdə öz gündəmini genişləndirdiyini və mümkün üzvlük məsələsinin artıq siyasi gündəmin bir hissəsinə çevrildiyini deyib: "Bu sadə məsələ deyil, lakin Ermənistanda siyasi gündəmin bir hissəsinə çevrilib, ona görə də bu mövzuya ətraflı və hərtərəfli yanaşmaq lazımdır. Avropa İttifaqındakı tərəfdaşlarımızın iradlarını və məsləhətlərini dinləmək vacib olacaq. Şadam ki, münasibətlərimizdə nəzərəçarpacaq dəyişikliklər var: viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlar başlayır, Avropa Sülh Fondu ilə Ermənistan Respublikasına dəstək verilməsi barədə qərar qəbul edilib, biz bunu çox yüksək qiymətləndiririk". Digər tərəfdən, Paşinyan Ermənistanın Aİ-yə üzv olması üçün danışıqlara start verib. Sentyabrın 16-da Ermənistanda ölkənin Avropa İttifaqına daxil olması ilə bağlı imzaların toplanmasına başlanılıb. Bu barədə Ermənistanın Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat xidməti məlumat yayıb. Məlumatda deyilir ki, komissiya sentyabrın 11-də "Ermənistan Respublikasının Avropa İttifaqına qoşulma prosesinin başlanması haqqında" qanun layihəsinin parlamentin müzakirəsinə çıxarılması üçün təşəbbüs qrupunun yaradılması təklifi ilə razılaşıb. "Respublika" Partiyası Siyasi Şurasının üzvü, 2018-2019-cu illərdə Ermənistanın ədliyyə naziri vəzifəsində çalışmış Artak Zeynalyan təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi təyin edilib.

Göründüyü kimi, Paşinyan hakimiyyəti yenə reallıqdan uzaq xəyallar qurur Rəsmi İrəvan Avropa İttifaqına üzvlük məsələsini ortaya atsa da, bu istiqamətdə ölkəyə əngəl olacaq kifayət qədər nüans var. İlk olaraq bu quruma üzv olmaq üçün Avropa qitəsində yerləşmək ən mühüm tələblərdəndir. Ermənistan isə Asiyada yerləşir. Təşkilatın prosedur qaydalarına müvafiq olaraq Avropa İttifaqı Şurası üzvlüklə bağlı ərizəni yalnız yekdilliklə rədd və ya təsdiqləyə bilər. Bir çoxlarının fikrincə, Ermənistan hakimiyyətinin təsir gücü zəif olduğundan demokratik institutların fəaliyyətinə hər hansı bir məhdudiyyət tətbiq edə bilmir. Belə olduğu təqdirdə isə xaricdə Ermənistanda demokratiyanın olduğu barədə saxta "imic" formalaşır. Yəni, təşkilat ölkə daxilindəki vəziyyəti analiz etsə hər şeyin əslində sadəcə yalandan ibarət olduğu aşkara çıxacaq. Ermənistanın təşkilata üzv olmaq üçün qarşısında duran əngəllər sadəcə bununla da bitmir. Aİ-yə üzv ölkələrin hər birinin dövlət sərhədlərini mühafizə etməyə qadir olduğunu düşünsək, İrəvanın yenə də bu normativlərdən kənarda qaldığını söyləyə bilərik. Ölkə, həmçinin iqtisadi və siyasi baxımdan da Moskvadan asılı durumdadır. Ermənistan bir tərəfdən Avropa İttifaqı ilə yaxınlaşmaq üçün dəri-dən-qabıqdan çıxır, o biri tərəfdən Paşinyan Kazanda keçiriləcək BRICS sammitində ölkəsinin nümayəndə heyətinə rəhbərlik edəcək. Aİ ilə yaxınlaşmaq, quruma üzv olmağa hazırlaşmaq hara, BRICS tədbirinə qatılmaq hara? Bununla Paşinyan guya balanslaşdırılmış siyasət yürütdüklərini göstərərək qarşı tərəfi aldatmaq istəyir.

Ermənistanın Avropa İttifaqı ilə bağlı xəyallar qurmasında Fransanın da rolu var. Belə ki, rəsmi İrəvan Parisin himayədarlığı sayəsində quruma üzv olacağını düşünür. Şübhəsiz, bu düşüncə çox yanlışdır. Çünki Makron hakimiyyəti ermənilərin deyil, məhz öz şəxsi maraqları üçün rəsmi İrəvanla müttəfiqlik edir. Paris Cənubi Qafqazda öz ambisiyaları üçün manipulyasiyalara əl atır. Bundan düzgün nəticə çıxara bilməyən Simonyan kimi xəyalpərəstlər isə asanlıqla Qərbə yönələ biləcəklərini düşünürlər. Ermənistanın hakim dairələri ölkənin mövcudluğunun Rusiyaya bağlı olduğunu unudurlar. Hindistandan Ermənistana strateji hava yolunun açılması məsələsinin gündəmə gəlməsi bir daha İrəvanın Qərbin əlaltısına çevrildiyini təsdiqləyir. Bununla yanaşı, Ermənistandakı Aİ missiyasının fəaliyyətini və Rusiya hərbi kontingentinə münasibəti nəzərə alsaq Paşinyan hakimiyyətinin xəyanətini açıq şəkildə görə bilərik.

Xatırladaq ki, Gürcüstanda da bir vaxtlar Avropa İttifaqına üzvlüklə bağlı fikirlər səslənirdi. Hələ 2014-cü ilin iyun ayında Gürcüstanın keçmiş baş naziri İrakli Qaribaşvili ilk dəfə Brüsseldə keçirilən konfransda ölkənin 5-10 il ərzində Aİ-nin tamhüquqlu üzvü ola biləcəyini söyləmişdi. Lakin üstündən xeyli keçsə də bu proqnozlar hələ də özünü doğrultmayıb. Halbuki Ermənistandan fərqli olaraq Gürcüstan Avropa standartlarına daha yaxındır. Bu baxımdan Ermənistanın Avropaya inteqrasiyası ancaq xəyal ola bilər.

***Sevinc Azadi***

XVII YAZI

# İtirdiyimiz xüsusiyyətlər: inam



**“İtirdiyimiz xüsusiyyətlər” silsiləsinə başlayandan bu günədək bir vaxtlar öyündüyümüz, amma indi gündüz çıraqla axtardığımız dəyərlərdən çox yazmışam. Bu gün silsiləmin on yeddinci yazısını yazıram. Yazıların mövzusunu vaciblik dərəcəsinə görə sıralaya bilmədim, çünki itirdiyimiz bütün dəyərlər bizim üçün əhəmiyyətlidir. Bu gün inamdan yazmaq qərarına gəldim, itirə-itirə gəldiyimiz daha bir dəyərimizdən**

İnam hissi insanın ən təməl ehtiyaclarından biridir. Bu, bəzi heyvanlarda da inkişaf etmiş hissdir. Xüsusilə evcil heyvanların öz sahibinə olan inam və etibar hissləri hər iki tərəf üçün əhəmiyyətlidir. İnam hissi ünsiyyətin təməl daşıdır desək, yanılmarıq. Qarşılıqlı münasibət yaradarkən inam hissini formalaşdırmaq çox vaxt uzun çəkə bilər, amma itirilməsi üçün bircə an da kifayət edir. İnam bir çoxumuz üçün hava, su kimi vacibdir, buna görə də kiminsə etibarını qazanmaq, inamını əldə etmək biz insanlar üçün əhəmiyyətlidir. Lakin inamın, etibarın, güvənin hər gün bir az da azaldığı cəmiyyətdə onu qoruyub saxlamaq asan iş deyil.

İnam hissi ailə, dostlar, qohumlar, ətrafdakılarla qurduğumuz kontaktın mərkəzindədir. Əgər inam hissimiz olmasa münasibətlərdə sağlam bağ yaratmaq da mümkün olmaz. Əgər inanmasaq, yaşamaq da çətinləşər. Əgər finsanın özünə və ya başqalarına inam hissi kifayət qədər güclü deyilsə, onun münasibətlərində bəzi problemlər yarana bilər. Etibarlı insanlarla əlaqələr qurulduğu zaman, inam hissini də qoruyub-saxlamaq mümkündür. Lakin bəzən bizdən asılı olmayan səbəblərdən bu mümkün olmur və bizim inamımız bizim gözümüzün önündə ölür.









Qarşılıqlı münasibətlərdə güvən hissi hər iki tərəfdən də səy tələb edir. İnanmaq və inanmamaq bizim öz əlimizdədir, amma inandırmaq və inamı puç eləmək də bizim əlimizdədir. Bəlkə də bunu yazmamalıyam, amma öz inamımın yaralanması da məni narahat edir. Həmişə o fikirdə olmuşam ki, insan inanmasa daşlaşar, hissiz-duyğusuz canlıya çevrilər. Bizi inamdan iyrəndirən, etimaddan, etibardan uzaqlaşdıran da elə özümüzdəndir, insanlardır. Bizim mərhəmətimizi sümürürlər, inamımızı əmirlər. Onlar bizdəki son duyğuları da əlimdən almağa çalışırlar, bizdən aldıqları ilə cəmiyyəti məhv edirlər əslində. Biz bunun fərqindəyik, bəs onlar?

Onlardan biri səni tanımayan, ünsiyyətin olmadığı, haqqında geniş məlumata sahib olmadığın adamdır. Adətən, sosial şəbəkə vasitəsi ilə kontakt qurur, ac olduğunu, evə getmək üçün yolpulunun olmadığını, ailəsinə çörək ala bilmədiyini deyir. Adətən bunları yazarkən və yaxud səsli mesaj göndərərkən qurbanlarını seçmirlər, kimə gəldi yazırlar, ”tutar qatıq, tutmaz ayran” misalı. Övladına çörək ala bilmədiyini deyən insan bizim ən həssas yerimizdir, cibindəki son qəpiyi, kartındakı son manatı da göndərirsən beləsinə. İnanırsan çünki. Nə biləsən o yazan səni və sənin kimi neçə adamı aldadır hər gün? Axı insan inamı ilə sınağa çəkilməz, biz buna inanmışıq həmişə. Aldandığını növbəti yardımistəmə mesajına qədər anlamırsan, amma ikinci dəfə təkrarlananda anlayırsan sən yardım etmək istəmisən, o səndən istifadə edib. Əgər bir gün həqiqi ehtiyaclı biri yardım mesajı yazarsa ona inanmamaq qədər təbii heç nə yoxdur.

İnamımızdan sui-istifadə edə-edə bizi daşlaşdırırlar, insanlıqdan uzaqlaşdırırlar. Yazdıqca düşünürəm, mənim inamımı nə qədər insan sümürüb bu günədək? Mən onların dürüstlüyünə inanmışam, dərdini dərdim bilmişəm, dəfələrlə yaxşılıq etmişəm, amma onlar məndən istifadə edib. Geriyə boylanıram, peşmanammı? Deyiləm. Çünki mən öz insanlığımı etmişəm, o öz pisliyini. Amma bu əməlləri ilə yaxşılıqla istifadə edilmək arasındakı o görünməz xətti siliblər. Övladının ac olduğunu dediyi üçün inanmışam, o mənim göndərdiyim pulu əyləncəyə, qumara xərcləyib. Uşaqlar bizim qırmızı xəttimizdir, mən o xəttə qıymamışam, cibimdəki son qəpiyi verdiyim adamlar qıyıb.

Dünyada aldadılmaq qədər insanı yaralayan heç nə yoxdur zənnimcə. Özünü qınayırsan, danlayırsan, məzəmmət edirsən, amma yenə aldadılmaq ehtimalın var. Çünki insansan, daş-qaya deyilsən. Yaxşı insansansa bu davam edəcək, mərhəmətindən istifadə edib inamını oğurlayacaqlar zərrə-zərrə. Hər aldadılma halı inam hissini bir az da azaldacaq, zamanla immunitet formalaşacaq, aldadılma halına qarşı təcrübəli olacaqsan və bir gün ayılacaqsan ki, heç kimə inanmırsan, güvənmirsən. Beləcə, daşlaşıb insanlığımızdan uzaqlaşırıq.

Ailədə də elədir. İnam ailənin təməlindəki daşlardan ən vacibidir. Sevgidən, məhəbbətdən, eşqdən də vacibdir. Biz inanmasaq sevə bilmərik, inanmasaq ailə ola bilmərik. Əgər bir gün inam bitərsə, eşq, sevgi nə qədər böyük olur-olsun, o ailə məhvə məhkumdur. Bir-birinə qarşılıqlı inamı olan insanlar üçün o inamın bitmə ehtimalı ürküdücüdür, çünki onların münasibətinin təməlində bu duyğunun olması hər ikisi üçün də güvən və etimad deməkdir. Bir-birinə sözsüz inanırlar, etibar edirlər və onlar üçün bu vəziyyət qeyd-şərtsiz vacibdir. İlk aldadılma halında sarsılan ailə qalası bir daha əvvəlki kimi olmur, ola bilmir.

Cəmiyyət tənəzzül edir, çünki ünsiyyətin təməli olan bir çox dəyəri sıxışdırıb çıxarırlar sosial həyatdan. Hamı hamını aldadır deyə, hamı hamıya potensial yalançı kimi baxır. Etibardan sui-istifadə edənlər, yaşlı adamların pensiyasına tamah salanlar, uşaqların müalicəsi üçün aparılan yardım kampaniyasından yığılan pulları oğurlayanlar bizi mühasirəyə alıblar. O mühasirədən çıxmaq, düzü düz, əyrini əyri görmək asan olmur, çünki münasibətlər virtuallaşıb, yardımlar elektronlaşıb, klaviaturada yazan əlin sahibini tanımırıq. Bütün bədəni yanan uşağın fotosunun arxasına gizlənib bizi aldadan atanın, əslində, heç olmadığını, dializ aparatından asılı olduğunu iddia edib minlərlə manat pul yığan qızın, ümumiyyətlə, böyrək xəstəsi olmadığını öyrənəndə iş işdən keçir. İnandığımız hər şey belə uçur, dağılır, yerlə-yeksan olur və biz altında qalıb mumiyaya çevrilirik.

***Lalə Mehralı***

# “Münasibətlərdə hiss olunan gərginlik sadəcə illüziyadır”

“Hər zaman demişəm və indi də qeyd etmək istəyirəm ki, Ermənistanla Rusiya münasibətlərində hiss olunan gərginlik sadəcə illüziyadır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. O bildirib ki, bu gərginlik hər iki ölkənin maraqlarına cavab verdiyi üçün davam etdirilir: ”Məsələ burasındadır ki, Ermənistanın Rusiyadan asılılıq səviyyəsi o qədər yüksəkdir ki, hətta Paşinyan istəsə belə indiki şərtlər daxilində Rusiya ilə münasibətlərə son qoya bilməz. Sadəcə ara-sıra Rusiyaya qarşı hansısa bəyanatlar verərək birincisi, Qərbdən gələ biləcək təzyiqi neytrallaşdırır, ikincisi isə, Rusiyadan gələ biləcək ”təhlükə” bəhanəsilə Qərbdən həm silah və texnika, həm də külli miqdarda maliyyə vəsaiti alır. Ermənistan rəhbərliyinin anti-Rusiya bəyanatları isə elə bəyanat səviyyəsində də qalır. Ermənistanın hələ də KTMT və Avrasiya İqtisadi İttifaqının üzvü qalması, Ermənistan ərazisində hələ də Rusiya hərbi bazalarının mövcudluğu, Ermənistanın ən iri dövlət şirkətlərinin, dəmir yollarının hələ də Rusiyanın balansında olması bunun bariz sübutudur. Ermənistanın Rusiyaya qarşı bəyanatdan əmələ keçən yeganə addımı hava limanından 15-20 əsgərin çıxarılmasıdır ki, onların da böyük əksəriyyəti erməni millətindən olan Rusiya vətəndaşları olublar.






Rusiya ilə Ermənistan arasında münasibətlərdə ciddi gərginliyin olmaması iki dövlət arasında iqtisadi münasibətlərdə və ticarət dövriyyəsində də özünü göstərir. Ermənistanın Rusiyaya olan ticarət dövriyyəsində əhəmiyyətli dərəcədə artım müşahidə olunur. Ticarət dövriyyəsindəki bu artım Avropa İttifaqının 2022-ci ildə Rusiyaya qarşı sanksiyalara başlamasından sonra müşahidə edilir. Maraqlı məqam isə Ermənistanın bu artımın kökündə Avropa İttifaqından aldığı məhsulları Rusiyaya satması dayanır. Bu isə Avropanın sanksiyalarını faktiki olaraq nəzərə almamağa bərabərdir”.

”Ermənistanın açıqladığı rəsmi statistikaya əsasən, 2024-cü ilin yanvar-iyul aylarında Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 9 milyard ABŞ dollarına çatıb ki, bu da təkcə ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə çoxdur. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk da Rusiya və Ermənistan arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın həmsədrlərinin görüşündə 2024-cü ildə iki ölkə arasındakı ticarət dövriyyəsinin 14-16 milyard ABŞ dolları arasında dəyişəcəyini deyib. Bu o deməkdir ki, bu il ərzində Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi 2022-ci ilədək olan 2,6 milyard ABŞ dollarından 6 dəfə, yəni 600 faiz çox olacaq. Bununla yanaşı, ixrac əməliyyatları 841 milyon ABŞ dollarından 2023-cü ildə 3,4 milyard ABŞ dollarınadək artıb. Beləliklə bu rəqəmlər özü də Ermənistanla Rusiya arasında gərgin münasibətlərin olmadığının göstəricisidir. Hər iki ölkə bir-birindən bəhrələnir. Əks halda Rusiya əlində olan iqtisadi təsir imkanlarını çoxdan işə sala və nəticədə Ermənistanı qısa vaxt ərzində dizə gətirərdi. Amma biz bunların heç birini müşahidə etmirik. Ermənistanın Rusiya əleyhinə bəyanatdan o yana keçməyən davranışlarına elə Rusiya da ancaq bəyanatlar verməklə kifayətlənir. Hələ üstəlik bu il ərzində Rusiyadan Ermənistana silah tədarükü də bərpa olunub.



Buraya məhz Putinin təklifi ilə Avrasiya İqtisadi ittifaqının son toplantısında Ermənistana yüz milyon dollar yardım ayrılmasını da əlavə etdikdə mənzərə tam aydın olur.

Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan Rusiya ilə gərgin münasibətlər fonu yaratmaqla əslində həm də Qərbdən faydalanır. Ara-sıra Rusiya ilə bağlı müsbət bəyanatlar verdikdə isə Qərbə daha çox dəstək verilməsi üçün mesajlar ötürmüş olur” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “İşğaldan azad edilmiş ərazilər ölkədə aqrar sektorun inkişafına zəmin yaradacaq”

**“Qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatı müstəsna rola malikdir. Nəzərə almalıyıq ki, ölkə əhalisinin 49 faizi kənd rayonlarında yaşayır və onların əksəriyyəti kənd təsərrüfatı ilə məşğuldur. Bu baxımdan biz aqrar sektorun sektorun inkişafına diqqətin vacib və səmərəli olduğunu müəyyən edə bilərik. Son illərin nəticələri göstərir ki, qəbul olunmuş dövlət proqramları, həyata keçirilən mühüm layihələr əsasında aqrar sektor inkişaf etməkdədir. Artıq kənd təsərrüfatında 3.4 faiz artıma nail olunması bu sahəyə göstərilən qayğının əyani nümunəsi ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Rzayev deyib.**

O bildirib ki, pambıqçılıq, taxılçılıq, üzümçülük, heyvandarlığın inkişafı sahəsində həyata keçirilən tədbirlər sahibkarlığın inkişafına önəm verilməsi, müasir texnologiyaların təsərrüfata tətbiq olunması, qabaqcıl təcrübənin öyrənilməsi bu gün diqqət mərkəzindədir və bu da sahənin inkişaf etdirilməsinə öz töhfələrini verir: ”Çox yaxşı haldır ki, işğaldan azad olunmuş ərazilərdə aqrar sektorun inkişafı üçün yeni proqramlar, yeni layihələr tətbiq olunur. Artıq müəyyən sahələrdə təhlükəsizliyin təmin olunması və orada yüz min hektarlarla torpaqların əkin dövriyyəsinə daxil edilməsi kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar açır. Keçən il həmin ərazilərdə taxıl, arpa, noxud, bostan məsulları yetişdirilib. Bu da ölkə iqtisadiyyatının inkişafı üçün vacib şərtdir.



Qarabağ, Şərqi Zəngəzur torpaqları kənd təsərrüfatı üçün çox böyük potensiala malikdir. Sovet dövründə həmin ərazilərdə pambıq, üzüm, taxıl, bostan məsulları yetişdirilmiş, heyvandarlıq xeyli dərəcədə inkişaf etmişdir. Bu gün biz qürur duyuruq ki, həmin torpaqlar işğaldan azaddır və yay mövsümündə Kəlbəcərə fermerlər öz mal-qaralarını qaldırırlar. Orada arı ailələri saxlanılır və sahibkarlar müəyyən gəlir əldə edirlər. Bu proses sürətlə davam edtirilir. Çünki artıq Zəngilan, Füzuli, Ağdam, Laçına köç başlayıb və həmin ərazilərdə insanların kənd təsərrüfatı ilə məşğul olmaları üçün lazımi imkanlar da yaradılır. Sözsüz ki, məskunlaşma sürətləndikcə həmin torpaqlarda kənd təsərrüfatı məsullarının yetişdirilməsi daha da sürətləndiriləcək.

Bu gün kənd təsərrüfatının inkişafı bir çox amillərdən asılıdır. Çətin və məsuliyyətli sahə olmasına baxmayaraq aqrar sektorun inkişafı, həm də təbii şəraitdən asılıdır. Bunun üçün iqlimə uyğun olan bitkilərin əkilməsi, yeni texnologiyaların təsərrüfata tətbiqi, cins mal-qaranın yetişdirilməsi, toxumçuluğun təmin olunması, məhsuldarlığın yüksəldilməsinə qayğı qarşıda duran başlıca vəzifə sayılır. Həmin ərazilərdə yeni su anbarlarının yaradılması da yaxşı haldır. Bu da təsərrüfatların su ilə təminatını yaxşılaşdıracaq və yüksək məshul əldə etməyə imkan yaradacaq.

İşğaldan azad olunmuş ərazilərdə minalardan təmizlənmə işlərinin sürətlənməsi deməyə əsas verir ki, bu torpaqlar tez bir zamanda əkin dövriyyəsinə daxil ediləcək və ölkədə aqrar sektorun inkişafına zəmin yaradacaq”.

***Səbinə Hüseynli***

# Avropanın qadın "komandos"ları

## Ursula fon der Leyenin təqdim etdiyi yeni Avropa komissiyasında əksəriyyət qadınlardır

***Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen nəhayət, Avropa İttifaqının icra hakimiyyətinin (komissiya) yeni strukturunu təqdim edib və hansı portfellərin kimə keçəcəyini açıqlayıb. Daha əvvəl üstüörtülü söz verildiyi kimi, ən yaxşı vəzifələr xanım fon der Leyenin gender bərabərliyini qorumaq və qadınları Avropa komissarları kimi irəli sürmək çağırışlarına məhəl qoymayan ölkələrə verilib. Yeni komandanın tərkibinin açıqlanmasına cəmi bir gün qalmış Brüsseldəki təmsilçisini əvəzləyən Fransa da oyundan kənarda qalmadı. Portfellər bölüşdürərkən Macarıstan ən şanslı ölkə sayılırdı, amma bu, hələlik proqnoz idi.***

Avropa İttifaqının baş icraçı direktoru, yeni baş komissarı Ursula fon der Leyenin komandasının yeni beşillik müddət üçün çoxdan gözlənilən təqdimatı, iyun ayında Avropa Parlamentinə keçirilən seçkilərdən sonra ümumavropa hökumətinin formalaşması ilə yekunlaşmadı. Çərşənbə axşamı təqdim olunan bütün Avropa komissarları oktyabr ayında AP tərəfindən təsdiqlənməlidir. Buna baxmayaraq, çərşənbə axşamı baş verənlər ən azı Aİ ölkələrinin Avropa Komissiyasında (AK) ən nüfuzlu postları tutacaqları və daha təvazökar mövqelərlə kifayətlənmək məcburiyyətində qalacaqları intriqaya ən azı son qoydu. Ən diqqətçəkən hadisələrdən biri isə AK-nin altı vitse-prezidentindən dördünün qadınlara getməsi idi.

Xanım fon der Leyen əvvəldən gender bərabərliyini müdafiə edirdi və hətta öz "nou-hauu"nu praktikada tətbiq edə bildi və bütün Aİ üzv ölkələrinə Avropa Komissarlığına iki fərqli cinsdən namizəd irəli sürməyi tövsiyə etdi. Əksər ölkələr isə AK rəhbərinin gender balansı tələbinə məhəl qoymayıb və kişilərin namizədliyini irəli sürüblər. Xanım fon der Leyenin 17 sentyabrda etiraf etdiyi kimi, AK-nin "yalnız 40% qadın və 60% kişi" olması faktı ilə kifayətlənməli oldu. Amma qeyd edək ki, baş komissarın tövsiyələrini dinləməyi zəruri hesab edən ölkələr mükafatlandırılıb. Beləliklə, İspaniya, Finlandiya, Rumıniya və Estoniya qadın namizədlər irəli sürüblər (əvvəldən bəlli idi ki, xarici siyasət xidmətinin rəhbəri Estoniyanın nümayəndəsi Kaia Kallas olacaq) və vitse-prezidentlər statusunda arzu olunan vəzifələri alıblar.

Eyni səbəbdən Sloveniyaya da güzəşt edilib - onun namizədi Marta Kosa ehtimal ki, Lyublyananın istədiyi kimi, genişlənmə üzrə Avropa komissarı vəzifəsi verilib. Bununla belə, hələlik Sloveniya öz namizədini rəsmən irəli sürməyən yeganə ölkə olaraq qalır. Və bunun bir səbəbi də xanım fon der Leyenin özündən heç də az deyil. Qadınların namizədliyi uğrunda mübarizə prosesində AK rəhbərinin əvvəllər namizədliyi irəli sürülmüş Tomas Veselin yerinə xanım Kosun təyin olunmasına nail olaraq Lyublyana hakimiyyətinə təzyiq etdiyi güman edilir. Və bu, öz növbəsində, baş nazir Robert Qolub AK rəhbəri ilə arxa planda sövdələşmənin bütün təfərrüatlarını ictimaiyyətə açıqlayana qədər ölkənin AK-yə yeni namizədini təsdiqləmək üçün bütün görüşləri keçirməkdən imtina edən Sloveniya müxalifətini son dərəcə qəzəbləndirib. Avropa Komissiyasının formalaşması zamanı nə baş verib?

AK-nin yeni tərkibinin təqdimatına sözün əsl mənasında bir gün qalmış Avropa İttifaqında Sloveniya tarixinə kölgə salan yeni və tamamilə gözlənilməz qalmaqal baş verib. Bazar ertəsi səhər Fransa prezidenti Emmanuel Makron tərəfindən ilkin olaraq ikinci müddətə namizədliyi irəli sürülmüş Fransanın Avropa komissarı Thierry Breton yenidən seçilməkdən imtina etdiyini bildirib. Onun getməsinə səbəb son beş ildə yaxşı münasibətdə olmadığı AK rəhbəri fon der Leyenin maxinasiyaları olub. "Bir neçə gün əvvəl, Avropa Komissiyasının tərkibi ilə bağlı danışıqların ən son anında siz Fransadan adımı geri çəkməyi xahiş etdiniz - mənimlə heç vaxt birbaşa müzakirə etmədiyiniz şəxsi səbəblərə görə", - cənab Breton indiki və keçmiş rəhbərini ittiham etdi. Və o izah edib ki, xanım fon der Leyen prezident Makron namizədi daha sadiq bir namizədlə əvəz edərsə, Parisə AK-də daha təsirli bir portfel vəd edib.




Yelisey sarayının rəhbəri tez bir zamanda onu əvəz etmək məcburiyyətində qalıb. Bretonun imtina etməsindən bir neçə saat sonra Fransa tezliklə vəzifəsini yerinə yetirəcək xarici işlər naziri Stefan Sejournetin yeni Avropa komissarı vəzifəsinə namizədliyini irəli sürüb. Və sonda ona AK-nin sənaye strategiyası və vahid bazar üzrə məsul altı icraçı vitse-prezidentindən biri vəzifəsinin verilməsi faktı dolayısı ilə cənab Bretonun həqiqəti dediyini təsdiqləyib.

Çərşənbə axşamı Strasburqda keçirilən mətbuat konfransında jurnalistlər Ursula von der Leyendən Thierry Bretonun gedişinin səbəbləri barədə soruşmayıblar. Lakin AK rəhbəri bu qərara görə fransızları günahlandıraraq bildirib ki, Emmanuel Makron bu qərarı "yeni baş nazir Mişel Barnierlə məsləhətləşərək" verib və onun bununla heç bir əlaqəsi yoxdur.

Əvvəlcə güman edilirdi ki, Ukrayna ilə bağlı hadisələri nəzərə alsaq, bu portfel Aİ-də hər kəsin ənənəvi olaraq rəqabət apardığı iqtisadi mövqelərlə əhəmiyyətinə görə müqayisə oluna bilər, lakin zaman keçdikcə o, cəlbediciliyini xeyli itirdi. Məsələn, uzun müddətdir bu vəzifəyə təyin edilmiş Polşa Xarici İşlər Nazirliyinin rəhbəri Radoslav Sikorski yayın əvvəlində bununla maraqlanmadığını bildirmişdi (baxmayaraq ki, o, Varşavadan Avropa komissarı kimi namizəd olmasa da). Nəticədə bu komissarlıq Litvanın keçmiş baş naziri Andrius Kubiliusa qismət olmuşdu. Budapeşt və Brüssel arasındakı gərgin münasibətləri nəzərə alaraq, Ursula fon der Leyen Macarıstanın baş naziri Viktor Orbanı qıcıqlandırmaq, bir az da ona xoş görünmək üçün həmin vəzifəni Macarıstandan olan Oliver Varhelyiyə təklif edib.




### Aİ-nin Rusiya siyasəti Estoniyada müəyyən ediləcək

Estoniyanın keçmiş baş naziri Kaja Kallas Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi vəzifəsində ispan Xosep Borreli əvəz edəcək. Bunu Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen deyib. Bu, eləcə də onun elan etdiyi Aİ icra orqanının yeni tərkibi göstərir ki, Avropa İttifaqı ən azı yaxın gələcəkdə Rusiya ilə qarşıdurmaya son qoymağı düşünmür. Kallas öz bəyanatlarına əsaslanaraq, Borrelldən daha çox Ukraynaya dəstəyin daha radikal tərəfdarı hesab olunur. Əslində, Kallas 2021-ci ilin yanvarından 2024-cü ilin iyuluna qədər Estoniyanın Baş Naziri kimi bu xətti davam etdirib. Kiyevə kömək edən bütün Aİ ölkələrindən bu keçmiş sovet respublikası ən fəal hesab olunur.

Məlumata görə, 2022-ci ildən 2024-cü ilin avqustuna qədər Estoniya Ukraynaya ayrılan yardımda ölkənin ÜDM-ə nisbətdə lider olub. Yalnız keçən ay Danimarka bu göstəricidə onu üstələyib ki, bu rəqəm də çox deyil: 1,8%, Estoniyanın 1,7%-i. Təsadüfi deyil ki, Kallas ölkəsinin baş naziri vəzifəsindən istefa verəndən sonra danimarkalılar birinci yerə çıxıblar. Əgər faizləri yox, məhz kiçik Estoniyanın Ukrayna cəbhəsinə köçürdüyü yardımların siyahısını götürsək, göstəricilər, əlbəttə ki, daha az təsir edici olacaq. Göründüyü kimi, Kiyev üçün ən qiymətli alış 155 mm FH70 və 122 mm D30 çaplı bir neçə onlarla haubitsa idi. Eyni zamanda, Estoniya Aİ-nin azsaylı ölkələrindən biridir ki, əslində onun hərbi qulluqçularının silahlı qüvvələrdən formal olaraq təqaüdə çıxmasına baxmayaraq, Ukrayna ordusunun tərkibində döyüşdüyünü gizlətmir. Estoniya mətbuatının məlumatına görə, 2024-cü ilin avqust ayına olan məlumata görə, üç estoniyalı Rusiya-Ukrayna münaqişəsi cəbhələrində həlak olub. Kallas həm də Rusiya Federasiyası ilə viza və sərhəd rejiminin sərtləşdirilməsinin, eləcə də Estoniyada rus dilində təhsilin tamamilə aradan qaldırılmasına yönəlmiş məktəb islahatının təşəbbüskarlarından biridir. Rus məktəblərinin ləğvi bu dövlətin əhalisinin təxminən 25%-ni təşkil edən rusların estonlardan ayrı bir etnik qrup kimi bir-iki nəsildən sonra yoxa çıxması demək olacaq. Heç kimə sirr deyil ki, fikir və inancları fərqli olan xaricdəki rus diasporunu birləşdirən yeganə "halqa" dildir.

Bir sözlə, Aİ rəhbərliyi Kallası seçməklə Rusiya Federasiyası ilə münaqişənin tezliklə bitəcəyini gözləmədiyini nümayiş etdirdi. Estoniyalı siyasətçinin eyni vaxtda təkcə Avropa diplomatiyasının rəhbəri deyil, həm də AK sədrinin icraçı müavini olması xüsusilə əlamətdardır. "Biz geostrateji rəqabət və qeyri-sabitlik dövründə yaşayırıq. Xarici siyasətimiz və təhlükəsizlik siyasətimiz bu reallığı əks etdirməli və öz maraqlarımıza daha uyğun olmalıdır. Bilirəm ki, Kajaya bütün bunları bir araya gətirəcək və daxili və xarici siyasətimiz arasında körpü olacaq" deyə, yeni təyin olunmuş şəxsi təqdim edən von der Leyen bildirib.

Avropa Komissiyasının digər tərkibi də göstərir ki, Brüssel nəyin bahasına olursa-olsun Rusiya Federasiyası ilə sülhə deyil, AK rəhbərinin "geostrateji rəqabət və qeyri-sabitlik" adlandırdığı şeyin davamına ümid edir. Belə ki, fon der Leyen Litvanın keçmiş baş naziri, 2019-cu ildən Avropa Parlamentinin üzvü Andrius Kubiliusu Avropanın müdafiə üzrə komissarı vəzifəsinə təklif edib. O, Rusiyaya təzyiqin inamlı tərəfdarıdır və Kallasdan fərqli olaraq 2022-ci ilə qədər belə olub. Avropa Parlamentinin üzvü kimi Kubilius 2021-ci ildə Rusiya Federasiyası Dövlət Dumasının legitimliyini tanımamağa çağırdığı hesabatı ilə bir qədər şöhrət qazanıb.

Funksiyalarına sanksiyalar siyasətinin işlənib hazırlanması daxil olan İqtisadi Məsələlər üzrə Avropa Komissarı vəzifəsinə fon der Leyen latviyalı Valdis Dombrovskisi təyin etmək niyyətindədir. Macarıstanın nümayəndəsi Oliver Varhelyi isə yalnız Avropanın Sağlamlıq və Heyvanların Mühafizəsi üzrə Komissarı vəzifəsini alacaq. Brüsseldə qərara alındığı kimi, Macarıstanın baş naziri Viktor Orbanın Rusiya-Ukrayna münaqişəsi ilə bağlı "xüsusi mövqeyi" səbəbindən onun nümayəndəsi bundan başqa heç nə iddia edə bilməz.

Avropa Komissiyasının yeni tərkibi Avropa Parlamenti tərəfindən təsdiqlənməlidir. Burada Kallas üçün heç bir problem gözlənilmir: parlament çoxluğu formalaşıb və onun tərkibində Rusiyayönlü siyasətçilər yoxdur. Beləliklə, noyabrın 1-də, Rusiya-Ukrayna münaqişəsində çox şeyi dəyişə biləcək ABŞ-da prezident seçkilərinə az qalmış Aİ-də diplomatiyanın yeni rəhbəri peyda olacaq.

Və başqa bir maraqlı detal: Brüsseldə Kallasın namizədliyini müzakirə edərkən, Estoniya mətbuatında ərinin Rusiyada biznes maraqlarının olması ilə bağlı xəbərlərə məhəl qoymayıblar. Von der Leyen bu məlumatı az əhəmiyyət kəsb etdiyini və ya Kallasın ailəsinin Rusiyadakı işgüzar əlaqələrinin keçmişdə qaldığını və indi mövcud olmadığını deyib.

**V.VƏLİYEV**

# “Qərb ssenarisi Qafqaza gecpartlayan bomba yerləşdirməkdir”

## Sergey Markov: "ABŞ və Avropanın dəstəklədiyi yarımçıq saziş gələcəkdə Ermənistan və Azərbaycan arasında yeni müharibənin başlamasına imkan verəcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*




Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Moskva-Baku" portalına müsahibəsində İrəvanın Bakı ilə qısaldılmış sülh sazişi imzalamaq istəməsinin səbəblərini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sergey Aleksandroviç, Ermənistan və Azərbaycanın heç bir konsensusa nail ola bilmədiyi bir neçə bənd olmadan İrəvanın Bakı ilə təcili sülh sazişi imzalamaq istəməsinin səbəbi nədir və bunun arxasında kim dayanır?***



- Ermənistanın bu istəyi onu göstərir ki, İrəvan hələ də Qarabağın Azərbaycan olduğunu rəsmən tanımaq istəmir. Əks halda, niyə Ermənistan hakimiyyəti tərəddüd edir və Azərbaycan Respublikasına qarşı ərazi iddialarını öz Konstitusiyasından çıxarmağa hələ də razılaşmır? Onlar özlərinə gələcəyə imkan pəncərəsi qoymaq istəyirlər ki, nə vaxtsa bəlkə yenidən Qarabağın qaytarılması məsələsini gündəmə gətirsinlər, həm də siyasi məqsədlər üçün Qarabağ ərazisinə ermənilərin qayıdış məsələsini manipulyasiya etsinlər. Və bütün bunlar qərblilərin dəstəyi ilə ola bilər. Paşinyanın sxemi dünyaya nümayiş etdirməkdir ki, baxın, biz Ermənistan hakimiyyəti çox mehriban, yaxşı, konstruktivik və Azərbaycanla barışmağa hazırıq. Amma reallıqda belə bir şey yoxdur.





Mən deyərdim: baş verənlər, digər şeylərlə yanaşı, Ermənistanın müttəfiqlərini cəlb etmək üçün "vitrin" buraxmaq istəyidir. İrəvan Azərbaycandan gələn müəyyən təhlükə mövzusunda alverini davam etdirmək və mesajlar vermək istəyir: gəlin, bizə kömək edin. Və həqiqətən ona kömək edirlər.

Fransa, Aİ və ABŞ qeyd-şərtsiz İrəvanın şərtləri ilə bağlı sazişin tezliklə imzalanması zərurəti ilə bağlı Azərbaycana təzyiq göstərməyə çalışır. Qərb prinsipial olaraq Ermənistanın tərəfində oynayır, o cümlədən qondarma Ermənistan-Azərbaycan nizamlanması məsələsində.

Qərb ssenarisinə görə, Bakı ilə İrəvan arasında qeyri-qənaətbəxş sazişin imzalanması (yeni iki ölkə arasında real sülhün bərqərar olması üçün əsas məqamları sənəddə qeyd olunmayan saziş) gələcəkdə problemləri üzə çıxarmağa imkan verəcək. Azərbaycan və Ermənistan arasında yeni müharibə yaradacaq. Qərb silahlı münaqişələr vasitəsilə bütün dünyada hökmranlığa nail olub. O, Cənubi Qafqazı çəngəldə saxlamasını təmin etmək istəyir. Ortaya çıxan yeni münaqişənin köməyi ilə bölgəni idarə etmək istəyirlər.

Məsələn, Qərbin Azərbaycana qarşı üstünlüyü ən çox ondadır ki, neft və qazda nəzarət paketləri ona məxsusdur. Qərb isə çiy ətə cuman it kimi, Cənubi Qafqaza soxulur. Aydındır ki, Azərbaycan heç bir qısaldılmış sülh müqaviləsi imzalamayacaq. O gözləyəcək.

***- Biz görürük ki, bir müddət əvvəl Ermənistanın baş naziri bəyan etmişdi ki, ölkə Aİ-yə indi də daxil olmağa hazırdır. Sonra Ermənistan hakimiyyəti bəyanatlar verdi ki, indi vaxtı deyil. Lakin bununla yanaşı, respublikanın qərbyönlü adlanan partiyaları (baxmayaraq ki, baş nazirin partiyasını partiya adlandırmaq çətindir) ölkənin Aİ-yə üzvlüyünə dəstək üçün əhalidən rəsmən imza toplamağa başlayıb. Bu, Ermənistan hakimiyyətinin Avropa İttifaqına daxil olmaq üçün zəmin yaratmasıdır, amma yanlış əllər vasitəsilə? Yoxsa vəziyyət öz-özünə inkişaf edir, amma İrəvan üçün əlverişlidir?***

- Düşünürəm ki, bu, biri ilə digərinin təsadüfüdür. Bəzən tərəflər də Avropa qrantlarına bağlanmaq və Aİ-yə daxil olmaq məqsədlərini həyata keçirmək üçün təşəbbüs göstərirlər. Paşinyan isə əhalinin təşəbbüsünə cavab verdiyini bu yolla nümayiş etdirmək istəyir.

Eyni zamanda, bu gün Ermənistanın Avropa İttifaqına daxil olması mümkün deyil. Fakt budur ki, Aİ artıq yeni üzvlərlə doymuşdur. O, obrazlı desək, həddindən artıq doymaqdan qusur. Aİ ölkələrinin əksəriyyəti yeni və kifayət qədər yoxsul Aİ üzvlərinin meydana çıxmasından qıcıqlanır. Və bu gün Aİ-yə üzv ölkələrin Ermənistanın Aİ-yə qəbuluna səs verəcəyini təsəvvür etmək fantastikdir. Amma Ermənistanın yarımüzvlüyü mümkündür ki, bu da respublikaya qeyd-şərtsiz imtiyazlar verəcək, eyni zamanda onun suverenliyinə məhdudiyyətlər qoyacaq. Ermənistan kiçik ölkədir. Təcrübə göstərir ki, o, öz suverenliyini məhdudlaşdırmaqdan qorxmur. İrəvan öz suverenliyinin bir hissəsini sərfəli şəkildə satmaq istəyir. Ermənistan hakimiyyəti hesab edir ki, onlar ölkənin suverenliyinin bəzi hissələrini özləri üçün hansısa prioritet şeylərə, siyasi və iqtisadi dəstək "parçalarına" dəyişə bilərlər. Bütün müşahidə edilən manipulyasiyalar nəticəsində İrəvan Aİ-yə üzv olmaq üçün namizəd ölkə statusunu görmək istəyir.



***- Fransanın xarici işlər naziri srağagün yenidən Ermənistana səfər edib. Yenidən anti-Rusiya "şüarları" eşidildi. Həmçinin Parisin Ermənistanın ərazi bütövlüyünü, təhlükəsizliyini dəstəklədiyini və onun Azərbaycandan qorunmasına kömək edəcəyini... Sejournet də Fransanın Qarabağ ermənilərinə maliyyə vəsaiti ayırdığını bəyan edib...***

- Fransa Xarici İşlər Nazirliyinin rəhbəri "saatları tutuşdurmaq" üçün Ermənistana gəlib. Azərbaycana təzyiq planı ilə irəliləyirlər. Paris Ermənistanın Respublikasını silahla təmin etməyə davam edəcək ki, gələcəkdə İrəvanın Azərbaycana qarşı növbəti dəfə fəaliyyət göstərmək imkanı olsun.

***- Ermənistanın baş naziri son vaxtlar Azərbaycanın Qarabağ ermənilərinə qarşı qondarma etnik təmizləmə ideyasını beynəlxalq ictimaiyyətə daha çox yaymağa başlayıb. Məqsəd nədir?***

- Onlar həmişə bu mövzunu manipulyasiya edəcəklər. Bu, "soyqırım alverinin" yüngül formasıdır. Tanınmış texnologiya. İndi bir çox ölkələr tarixdə öz soyqırımını tapmağa çalışır. Tipik müasir siyasət.

***- Nə üçün İran son vaxtlar Zəngəzur dəhlizi ilə bağlı Azərbaycan və Rusiyaya kifayət qədər aqressiv eyhamlar verir, bu nə deməkdir?***

- Bu siyasətdir. İran bu gün Məsud Pezeşkian hakimiyyətə gəldikdən sonra Qərblə münasibətləri yaxşılaşdırmağa çalışır. Amma obyektiv olaraq Tehranın həm Rusiya, həm də Azərbaycanla konstruktiv və qarşılıqlı faydalı münasibətlərə ehtiyacı var. Ona görə də deyə bilərik ki, müəyyən mənada İran və Rusiyanın, eləcə də İran və Azərbaycanın bəzi sahələrdə müsbət gündəliyi olsa da, bəzi sahələrdə fikir ayrılıqları var. Müəyyən mənada, Rusiya ilə Türkiyə arasındakı münasibətlərdə olduğu kimi bənzətmə aparıla bilər.

İran Rusiya ilə sıx əməkdaşlıq edir. Üstəlik, Zəngəzur dəhlizi məsələsində Tehranın Ermənistanın tərəfində olduğunu desək, bu, Ermənistanın maraqlarından yox, özünün regionda təsir maraqlarına hörmət etmək istəyidir.

***Tərcümə - Elçin Bayramlı***

# Çoxuşaqlı, yoxsa çoxdərdli ailə?






"Təbii artım təkcə Azərbaycanda deyil, qlobal miqyasda enmə dinamikası ilə müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib. O bildirib ki, bunun bir çox səbəbləri var: "Sovetlər dönəmində və ondan əvvəlki vaxtlarda Azərbaycanda çoxuşaqlı ailələr üstünlük təşkil edirdi. Azərbaycan cəmiyyəti üçün bu xarakterik idi. Ənənəvi cəmiyyət olduğumuz üçün bizdə çoxuşaqlı ailələr həyat tərzi idi. Bəzən ailələr yarışırdılar ki, kimdə daha çox uşaq dünyaya gələcək. Sovetlər dönəmində də müharibədən sonra itkilərin yerini doldurmaq üçün bu demoqrafik siyasət təşviq olundu, çoxuşaqlı ailələr təşviq olundu. Hətta qəhrəman ana adı müəyyənləşdi. Qəhrəman ana adı imtiyaz olaraq verildi. Hesab edirəm ki, bu çoxuşaqlı ailələr demoqrafik siyasət kimi körüklənir və təşviq olunurdu. Ancaq Sovet İttifaqının fiyaskosundan sonra təkcə fiziki sərhədlər deyil, mənəvi sərhədlər də götürüldü. İnsanlar xarici ölkələrə gedib-gəlməyə başladılar. Müxtəlif serial, filmlərlə Azərbaycan insanı da gördü ki, çoxuşaqlı ailə trend deyil. "Çoxuşaqlı ailədənsə daha çox keyfiyyətli uşaq olsun" kimi düşüncə gəlməyə başladı. Avropa, Qərb ölkələrdə olan eqoist həyat tərzini yavaş-yavaş Azərbaycan insanı da mənimsəməyə başladı.

Eyni zamanda çoxuşaqlı ailələrin azalmasına səbəb həm də o idi ki, əgər Sovetlər dönəmində çoxuşaqlı ailələrə uşaq pulu verilirdisə, 2006-cı ildən etibarən uşaq pulu Azərbaycanda verilməməyə başladı. Bunun əvəzini ünvanlı sosial yardım əvəz etməyə iddialı olsa da, təcrübə onu göstərir ki, ünvanlı sosial yardım uşaq pulunu əvəz edə bilməz. Çünki ünvanlı sosial yardım əhalinin təbəqələrini əhatə edə bilmir. Ölkədə 2 milyon 600 min uşaq var. Bu uşaqların 600 mini sosial müavinət və sosial dəstəklə əhatə olunub. Onların da 160 mini ünvanlı sosial yardımın əhatəsində olan uşaqlardır. Yerdə qalan uşaqlar uşaq puluna ehtiyacı olan uşaqlardır. Əhalinin zəngin, imkanlı təbəqələri də var. Hesab edirəm ki, doğumun səviyyəsini, təbii artımın inkişaf tempini artırmaq üçün ehtiyacı olan ailələrə uşaq pulu vermək məqsədəuyğundur. Belə olarsa, güman edirəm ki, təbii artıma müsbət təsir göstərəcək. Çünki təcrübə onu göstərir ki, Sovetlər dönəmində uşaq pulu demoqrafik siyasəti dəstəkləyən addım kimi istifadə olunan alət idi. Uşaq pulları bərpa olunarsa, bu, demoqrafik siyasətə təkan verə bilər.

Son vaxtlar insanlarda eqoist həyat tərzi başlayıb. İnsanlar bir, iki, ən yaxşı halda üç uşaqla kifayətlənirlər. Əvvəlki ailə düşüncəsi artıq aradan qalxıb. Ailələrin statistikasına baxanda görürük ki, boşanmalar da bu hallara təsir edir. Boşanmalar çox olduqca təbii artım aşağı düşür. Bu da başa düşüləndir. Biz həm də boşanmaların qarşısını almalıyıq. Artımın azlığı gələcəkdə əmək bazarında, səfərbərliklə bağlı məsələdə problem yarada bilər. Təbii artım aşağı düşürsə, mexaniki artım artır. Yəni ölkəyə miqrant axını arta bilər. Bu, bütün ölkələrdə belədir, hətta Avropa ölkələri bundan əziyyət çəkirlər".

"Təbii artımın aşağı düşməsi həm də gənefon üçün təhlükə yarada bilər. Bəzi iqtisadçılar bunun SOS siqnalı səviyyəsində olmadığını vurğulayırlar, ancaq bir neçə ildir ki, Azərbaycanda təbii artımda enmə dinamikası var. Bu, bütövlükdə ölkədə SOS siqnalı çalır. Yeni doğulanlar azalırsa, gənclərin sayı azalır, ahıların sayı çoxalır. Bu da əhalinin qocalması mənasına gələ bilər. Bunun qarşısını almaq üçün çalışmalıyıq ki, təbii artım inkişaf tempi əldə etsin. Son 22 ildə Azərbaycanda ahılların sayı 99,4%-i artıb. Amma əhalinin ümumi sayı 26,44% artıb. Deməli, ölkədə əhalinin qocalması sindromu yaşana bilər. Eyni zamanda ölkə əhalisi içində pensiyaçıların saldosu da təqribən 10-11%-dir. Düzdür, ahıl yaşı Azərbaycanda Sosial Xidmət Qanununa görə 70 yaş sayılır. Ancaq bir ölkədə ahılların sayı ölkə əhalisinin ümumi sayının 7-8%-ni təşkil edirsə, əhali qocalmış sayıla bilər. Güman edirəm ki, Azərbaycanda pensiya yaşına çatan insanların 10-11% olması artıq bizdə də əhalinin qocalması ilə bağlı SOS siqnalı səslən dirir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressalnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Toyda döyülən şəxs xəstəxanada ölüb...



Göygöl rayonunda toyda döyülərək ağır xəsarət alan şəxs xəstəxanada ölüb. Belə ki, bir neçə gün öncə Göygöl rayonunda keçirilən toy mərasimində döyülərək ağır xəsarətlər alan 1987-ci il təvəllüdlü Elbəyi Nəbiyev xəstəxanada dünyasını dəyişib.

Qeyd edək ki, Göygöl rayon ərazisindəki şadlıq saraylarının birində Ağstafa rayon sakini 1987-ci il təvəllüdlü E. Nəbiyev xuliqanlıq zəminində döyülərək xəstəxanaya yerləşdirilmişdi. Göygöl Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri müvafiq tədbirlər nəticəsində hadisəni törətməkdə şübhəli bilinən, rayon sakink R. Cəlilov saxlanılaraq istintaqa təhvil verilib. Hadisənin musiqi sifarişi üstündə baş verməsi məlum olub. Faktla bağlı araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**